10_27 IYUl-QARA.qxd 3/14/2024 9:51 PM Page 1


# UNİKAL

№10 (2192) 15 mart 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Bayramqabağı yeni bahalaşma dalğası gözlanilir



Səh. 5

## Azərbaycan Prezidentindən mühüm mesajlar

*Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 14-də "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu işə başlayıb.* "Unikal" xəbər verir ki, Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi. Prezident İlham Əliyevin çıxışı zamanı sabitlik və təhlükəsizlik məsələləri ilə bağlı mühüm mesajlar verib: "Dünya sürətlə dəyişir. Əfsuslar olsun ki, yeni qeyri-sabitlik və qarşıdurma ocaqları meydana çıxır. Ötən ilin martında müzakirə etdiklərimizlə bu gün müzakirə etdiklərimizi müqayisə etsək nəzərəçarpan dəyişikliklər görərik. Burada geosiyasi dəyişikliklər baş verir. Səh. 3

## Ermənistan tərəfindən işğal edilmiş 4 kənd bu tarixdə qaytarıla bilər



*Hərbi ekspert Ədalət Verdiyev "Unikal"a müsahibə verib. O, Ermənistanın təxribat cəhdlərindən, Azərbaycanın işğal altında olan 8 kəndinin nə zaman qaytarılacağından, Ermənistanın "Zvartnots" hava limanından Rusiya hərbçilərinin çıxarılması ilə bağlı çağırışından və Rusiyanın bu ölkəni necə cəzalandıra...*

Səh. 4

## Hüseynbala Mirələmovun zəif romanları, güclü biznesi...



*"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Milli Məclisin sabiq üzvü Hüseynbala Mirələmovdur.*

Səh. 6

## Cəmiyyətin güzgüsü sayılan televiziyalarda fikir, söz azadlığı




*Televiziyalar cəmiyyətin güzgüsüdür. Efir məkanının üzərinə düşən əsas vəzifələr sırasına vətənpərvərliyin, xalqımızın mədəniyyətinin, incəsənətinin lazımi səviyyədə təbliğidir. Televiziya kanallarının konsepsiyası, strateji hədəfləri, efir siyasəti ictimai maraqlarla uzlaşdırılmalı, cəmiyyətimizin...*

Səh. 11

10_27 IYUl-QARA.qxd 3/14/2024 9:52 PM Page 2



# Yerli tanınmışlardan kim oruc tutur?





***Ramazan ayının ilk günlərini yaşayırıq. Müşahidələr göstərir ki, oruc tutanların sayı əvvəlki illərə nisbətən daha çoxdur. Bəziləri namaz qılmasalar belə, Ramazan ayında vacib buyurulan əməlləri yerinə yetirməyə çalışırlar.***

Ramazanda məşhurların oruc tutub-tutmaması həmişə müzakirə mövzusudur. Həmçinin, bu ayda toylar, şənliklər azaldığından sənətçilərin nə işlə məşğul olduqları, necə dolandıqları da maraq doğurur.

"Unikal" bildirir ki, oxu.az-ın əməkdaşı bir neçə sənət adamı ilə danışıb.





Aktrisa Çimnaz Sultanova ilk gündən oruc tutduğunu qeyd edib: "Ramazanın ilk günündən orucam. Çox gözəl aydayıq. Allah hər kəsə ruzi-bərəkət bəxş etsin. Tutulan oruclar, edilən ibadətlər qəbul olsun".

Müğənni İradə İbrahimova hər kəsə bərəkətli Ramazan arzulayıb: "Bəli, hər il olduğu kimi, çox şükür, bu il də oruc tutmaq nəsibim oldu. Hər kəsə xeyirli, bol ruzi və bərəkətli Ramazan arzu edirəm. İslamın beş şərti var: şəhadət, namaz qılmaq, oruc tutmaq, zəkat vermək və həccə getmək. Oruc tutmaq Allahın icazəsini almaq üçün yerinə yetirdiyimiz ibadətdir. Bədənin sədəqəsi kimi düşünmək lazımdır.

Lakin səhhətində problem olanlar, davamlı dərman qəbul edənlər, yaşlılar və çətin işlərdə işləyənlər oruc tuta bilməzlər. Allah tutulan orucları, edilən dualarımızı qəbul etsin. Allah hər kəsə öz ruzisini göndərir".

Xalq artisti Bilal Əliyev illərdir, oruc tutduğunu dilə gətirib: "İşlərim qaydasındadır. Hər şey əladır. Hazırda orucam. 1993-cü ildən oruc tuturam. Allah hamını düz yola çəksin. Orucun xeyrini görürəm. Ramazan ayının gəlişini səbirsizliklə gözləyirəm. Mən ancaq oruc tutmaqla bədənimi, orqanizmimi sağlamlaşdırıram". B.Əliyev bütün işlərini Ramazan ayına saxladığını qeyd edib: "Mən hər işimi proqrama salmışam. Bütün görüləcək işlərimi Ramazana saxlayıram. Ailəmi, kasıb adamları ziyarət edirəm. Bütün işlərimi orucluqda edirəm. Toylar olmur. Mən də səmərəli keçirməyə çalışıram. İbadətlə məşğul oluram".

Müğənni Manaf Ağayev dərman qəbul etdiyi üçün oruc tuta bilmədiyini bildirib: "Müəyyən səbəblərdən oruc tuta bilmirəm. Dərman qəbul edirəm. Amma oruc tutanlara iftar süfrəsi verirəm. Həmişə də vermişəm. Ailə üzvlərim oruc tuturlar". M.Ağayev toy olmadığı üçün Ramazan ayında yaradıcılıqla məşğul olduğunu söyləyib: "Yeni mahnılarım çıxacaq. Onların üzərində işləyirəm. Yaradıcılıqla məşğulam. Hər işi bu aya saxlayırıq".

Aktrisa Məleykə Əsədova bu ayda teatrların fəaliyyətinə davam etdiyini bildirib: "Ramazan ayı teatrların fəaliyyətinə heç bir maneə törətmir. Müğənnilər ilə aktyorlar, aktrisalar bir deyillər. İstər Məhərrəm, istərsə də Ramazan ayında hər həftə tamaşalar keçirilir".

Müğənni Mətanət Əsədova Ramazan ayında hamı kimi davrandığını qeyd edib: "Bu ayda hamı necədirsə, biz də eyniyik, fərq yoxdur".

Müğənni Türkan Vəlizadə isə sadəcə, ölkə xaricində konsertdə olduğunu söyləyib.



## Aysun toyundan danışdı: "Hər kəs elə bilirdi ki..."

***"Əslində mama demişdi ki, qızımı dekabrda verəcəm, gedəcək. Elə o dediyi tarixdə də verdi, getdim".***

Bu sözləri müğənni Aysun İsmayılova "Tarixin bir günü" verilişində deyib.

O, ailə qurması ilə bağlı ilk dəfə danışaraq, bəzi sualları cavablandırıb: "Dekabrda imam nikahı oldu. Biz toy etmək istəmirdik, böyük qadın məclisi keçirmək istəyirdim. İstəyirdim ki, "ZAQS"ımın tarixi "zerkalnı" olsun. Ona görə də nikahı saldıq yanvarın 24-nə - bir ay sonraya. Oldu 24.01.2024. Hər kəs elə bilir ki, biz yanvarın 24-də evlənmişik, amma biz dekabrdan evliyik".

## Aşıq Zülfiyyə: "Manaf Ağayevin belə qorxaq olduğunu bilmirdim"



***"Manaf zəhmət çəkib maşını özü sürərdi, mən də oturardım sərnişin kürsüsündə".***

"Unikal" bildirir ki, bunu qaynarinfo-ya açıqlamasında Aşıq Zülfiyyə İbadova müğənni Manaf Ağayevin ittihamlarına cavab verərkən deyib.

Zülfiyyə İbadovanın sözlərinə görə, əgər avtomobili sürətlə sürməsəydi, Manaf Ağayev vaxtında məclisə çatmayacaqdı: "Bu da mənim çox sağ olumdur? İkimiz bir efirdə qonaq idik, sual verdilər, Manaf Ağayev də bunu zarafatla açıqladı. Nə olsun, Manaf səni toya aparıb vaxtında çatdırdım ki... Açığı mən Manafın belə qorxaq olduğunu bilmirdim".

Qeyd edək ki, müğənni Manaf Ağayev Aşıq Zülfiyyəni pis avtomobil idarə etməkdə ittiham edib:

"Avtomobillə oynamaq olmaz. Ümumiyyətlə, sürətlə avtomobil idarə edənləri sevmirəm. Bir dəfə Zülfiyyə xanımla yol getmişəm, həyatıma nifrət eləmişəm. Zülfiyyə xanım avtomobili yüksək sürətlə - 200 sürətlə sürürdü. Avtomibil "mən ölüm, sən ölüm"ə baxmır. Bir saniyə içində faciə baş verir".

## "Boşanan sponsor tapıb müğənni olur" - Səidə Sultan

***Müğənni Səidə Sultan həmkarlarına atmaca atıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Rəngarəng" verilişində danışan sənəçti yeni nəsil ifaçıları tənqid edib. Onlarla rastlaşdıqda üzlərinə də sözünü deyən Səidə bundan çəkinmədiyini bildirib.





## Avropa Parlamenti tam şəkildə erməni lobbisini təmsil edir - Milli Məclis

***Avropa Parlamenti martın 13-də qəbul etdiyi qətnamə ilə Azərbaycana qarşı olan açıq qərəzini növbəti dəfə nümayiş etdirib. Görünən odur ki, Avropa xalqlarının problemləri, qarşılaşdıqları çağırışlarla məşğul olmaq əvəzinə Avropa Parlamenti artıq tam şəkildə erməni lobbisinin, Azərbaycanofob, islamofob, şovinist və irqçi qüvvələrin qanuni təmsilçisinə çevrilib.***

"Unikal" xəbər verir ki, bu fikirləri Milli Məclisin Avropa Parlamentinin "Avropa İttifaqı və Ermənistan arasında daha yaxın əlaqələr və Azərbaycanla Ermənistan arasında sülh sazişinə ehtiyac" adlı qətnaməsinə dair açıqlamasında yer alıb.

Açıqlama, həmçinin qeyd olunur: "Avropa Parlamentinin ötən illər ərzində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sözdə belə olsa tanımaqdan, dəstəkləməkdən inadla imtina etməsinin dəfələrlə şahidi olmuşuq. Lakin ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı aparılan indiki kampaniya Avropa Parlamentinin artıq riyakarlığı və ikiüzlülüyü də bir kənara qoyaraq, Azərbaycana qarşı birmənalı şəkildə hücuma keçdiyini göstərir.

Qətnamədə Azərbaycana qarşı səsləndirilən açıq təhdidlər və tələblər, tabutuna mismar vurulmuş separatçılara göstərilən aşkar dəstək və onları diriltmək cəhdləri, Ermənistanın şərti sərhəddəki hərbi təxribatlarının bilərəkdən görməzdən gəlinməsi, Fransanın Cənubi Qafqazda vəziyyəti gərginləşdirməyə çalışan addımlarının "orduya islahat dəstəyi" kimi qələmə verilməsi və digər bir çox məqamlar məhz bunun sübutudur.

Absurd olan başqa bir məsələ isə bundan ibarətdir ki, Avropa Parlamenti Azərbaycana qarşı bu hücumunu "sülh sazişinə ehtiyac" adı altında pərdələməyə cəhd edir. Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə danışıqların aparıldığı bir vaxtda tamamilə proseslərin mahiyyətinə zidd olan bu qətnamə, əksinə, "sülh sazişinə zərbə" kimi xarakterizə olunmalıdır.

Avropa Parlamentinə bildiririk ki, onun belə "dəstəyinə" qətiyyən ehtiyac yoxdur və tövsiyə edirik ki, öz "səylərini" başqa istiqamətlərə yönəltsin".

## Ülvi Həsənli və Sevinc Vaqifqızı ilə bağlı yeni qərar

***"Abzas Media" saytının direktoru Ülvi Həsənli və baş redaktoru Sevinc Abbasova (Vaqifqızı) barələrində seçilmiş həbs qətimkan tədbirinin müddətinin uzadılması ilə bağlı istintaq orqanının təqdimatına baxılıb.***

"Unikal" xəbər verir ki, Xətai Rayon Məhkəməsində hakim Rəfail Sadıxovun sədrliyi ilə keçirilən prosesdə qəbul edilən qərara əsasən, Ülvi Həsənli və Sevinc Abbasova (Vaqifqızı) barəsində həbs qətimkan tədbirinin müddəti daha 2 ay 29 gün uzadılıb.

Qeyd edək ki, ötən il noyabrın 21-də "Abzas Media"nın direktoru Ülvi Həsənli və baş redaktoru Sevinc Vaqifqızı, noyabrın 23-də isə direktor müavini Məhəmməd Kekalov, dekabrın 1-də isə saytının əməkdaşı Nərgiz Absalamova, dekabrın 13-də jurnalist Hafiz Babalı və yanvarın 13-də saytın əməkdaşı Elnarə Qasımova barəsində qrup halında qaçaqmalçılıq ittihamı ilə həbs qətimkan tədbiri seçilib.

Onlar barəsində Cinayət Məcəlləsinin 206.3.2-ci (qrup halında qaçaqmalçılıq) maddəsi ilə ittiham irəli sürülüb və barələrində həbs qətimkan qərarı verilib.

# Əbülfəs Qarayevlə Anar Kərimova on milyonlarla manatlıq sual...

## Hər il kinoya ayrılan böyük məbləğdə pullar hara gedib?

***Yola salmaq üzrə olduğumuz həftə illər uzunu dövlət büdcəsindən milli kinonun inkişafına ayrılan pulların taleyi yenidən müzakirə mövzusuna çevrildi. Xatırladaq ki, son iki ildə həmin pulların aqibəti ilə bağlı kino sahəsində çalışan ayrı-ayrı şəxslərdən dəfələrlə açıqlamalar gəlib.***

Məsələn ötən il "Azərbaycan Kinosu - 125: Reallıq, Çağırışlar və Hədəflər" mövzusunda Kino forumu çərçivəsində "Biznes. Kino və digər audiovizual əsərlərin maliyyələşməsinin prinsip və mexanizmləri" panelində Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, kinoprodüser Əli İsa Cabbarov demişdi ki, sözügedən vəsaitlərin nələrə, hansı məqsədlər üçün xərcləndiyi açıqlanmalıdır: "Hər il dövlət büdcəsindən kinoya 6 milyondan çox pul ayrılır. "Azərbaycanfilm"in direktoru Nazim bəy kinostudiyaya ayrılan büdcəni açıqladı. Məni çox təəccübləndirdi. Bəs bu pullar hara gedir? 2022 və 2023- cü ildə niyə film istehsal olunmayıb? Bu çox maraqlıdır".

İki il əvvəl isə Milli Məclisin yaz sessiyası çərçivəsində keçirilən ilk plenar iclasında Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa qonşu ölkələrlə müqayisədə Azərbaycanda kino sənayesinin bərbad vəziyyətdə olduğunu dilə gətirmişdi.

2021-ci ildə isə maliyyə naziri Samir Şərifov Milli Məclisdə bildirmişdi ki, "Azərbaycan Kinematoqrafiyasının İnkişaf Konsepsiyası"nın layihəsi hazırlanıb. Konsepsiya layihəsi bir neçə dəfə Maliyyə Nazirliyinə təqdim olunsa da, qəbul edilməyib. Buna səbəb vəsaitlərin ayrılması və nəticədə hər hansı ekran əsərlərinin olmamasıdır.

Yeri gəlmişkən, bu yaxınlarda yeni yaradılan Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri seçilmiş Xalq artisti Rasim Balayev də iki il öncə kinoya ayrılan pulların yeyinti qurbanına çevrildiyini açıq şəkildə vurğulamışdı. Sitat: " Mən qiyməti ilə deyə bilərəm ki, hansı filmdən öncədən nə qədər mənimsənilib. Bunu açıqlamayacam. Çünki bu, prokurorluğun işidir. Amma kinoya 1 milyon manat ayırıblarsa, onun 200 minini mənimsəyiblər. Bunu Mədəniyyət Nazirliyində iki-üç nəfər edib..."

Yola salmaq üzrə olduğumuz həftə isə gənc kinorejissor, bu yaxınlarda yaradılan Kino Sənayesinin İnkişafı İctimai Birliyinin (İB) təsisçilərindən Orxan Mərdan lent.az-a müsahibəsində deyib ki, Azərbaycan hökumətinin kinomuzun inkişafına ayırdığı diqqət və vəsaiti göz görə-görə itirənlər mədəniyyətimizə, hökumətimizə, xalqımıza qarşı satqınlıq edirlər. Sitat: "Hökumətin gördüyü işə kölgə salmaqla, bu qayğıya xəyanət edirlər. Hər il dövlət müntəzəm olaraq kinoya 6-7 milyon pul ayırır. Kəsir boğazından, deyir ki, gedin çəkin. Bizi bəyənməyən öz aralarında ad, vəzifə, status davası edən adamların hamısı 30 ildən çoxdur o milyonlara sahib olurlar. Və hələ də ortada layiqli bir film yoxdur. İndi bizə kino, mərifət dərsi keçməyə çalışanlar, bizi kinonun düşməni, özlərini qayğıkeş elan edən o ağsaqqallar hər il 6-7 milyon pulu zibil qabına atırlar..."




Onun sözlərinə görə, son 30 ildə 6 milyondan hesablayanda dövlətin ayırdığı pul 180 milyon edir. Sitat: "Dövlət tərəfindən çəkilmiş bir "Dolu" filminin adını hamı tanıyır. Başqa nə var ortalıqda? Yaradıcılıq xalqa xitab eləməlidir. Vaqif Mustafayev dövlət hesabına 1 milyon 200 manata "Həyat sən necə gözəlsən" filmini çəkdi, hanı? Heç kimin xəbəri yoxdur, baxılmadı. Adamı yandıran odur ki, "ölkəmizi xaricdə təbliğ edirik" desələr də, nəticə yoxdur. Xarici ölkələrə pulsuz biletlər, səfərlər, bahalı otellər... Hansı filmimiz dünyada tanınır, başqa ölkələrdə ondan danışılır? Pul var, amma film yoxdur. Hər il 6 milyon ayrılır. Xərclənibsə, hanı film?"

Bütün bu deyilənlərdən belə anlaşılır ki, Əbülfəs Qarayevin və Anar Kərimovun mədəniyyət naziri olduğu dönəmlərdə Azərbaycan kinosunun inkişafı üçün dövlət büdcəsindən ayrılan və ümumi məbləği on milyonlarca manatla ifadə edilən vəsait faktiki şəkildə havaya sovrulub. Həmin vəsaitlərin aqibəti ilə bağlı çoxsaylı ittihamlara Qarayevlə Kərimovun indiyədək heç bir aydınlıq gətirməməsi, sözügedən ittihamlar qarşısında sadəcə susqunluq nümayiş etdirməsi isə heç bir məntiqə sığmır.

Görünür, bu haqda adları çəkilən keçmiş nazirlərdən hüquq müstəvisində soruşmaq lazım gələcək. Əks halda illər uzunu dövlət büdcəsindən kino sahəsinə yönəldilmiş külli miqdarda pulun taleyini heç vaxt öyrənə bilməyəcəyik...

***Toğrul Əliyev***

# Paytaxtda XI Qlobal Bakı Forumu keçirilir

***Martın 14-də XI Qlobal Bakı Forumu açılış mərasimindən sonra işini "Parçalanmış dünyanın bərpası" mövzusunda panel iclasla davam etdirib.***

Birinci panel iclasına İsveçrə Beynəlxalq İşlər üzrə Forumun vitse-prezidenti David Cikvadze moderatorluq edib. O bildirib ki, Azərbaycan Qələbədən sonra prezident seçkilərində çox müdrik seçim edib. Moderator, eyni zamanda, dünyada gərginliyin olduğu bir vaxtda Azərbaycanda sabitliyin hökm sürürdüyünü vurğulayıb.

"Parçalanan dünyanın bərpası istiqamətində səylərimizi əsirgəməyəcəyik. Dünyada münaqişələr canlanmaqdadır. Bütün beyin mərkəzlərini bir araya gətirərək müzakirələr aparmalıyıq. Tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir. XI Qlobal Bakı Forumunda bu mövzular geniş müzakirə olunacaq", - deyə David Cikvadze qeyd edib.

Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti Kerri Kennedi Qlobal Bakı Forumunun yeni üfüqlər açdığını söyləyib. Bildirib ki, dünyanı xilas etmək üçün düşüncə tərzi dəyişməlidir.

O qeyd edib ki, Robert F.Kennedi İnsan Hüquqları Fondu bərabərsizliyə, haqsızlığa qarşı hər zaman səsini ucaldır. "Biz hüquqların bərabər olmasına nail olmalıyıq, həmçinin yoxsulluğun, bütün bu təlatümlərin öhdəsindən birgə gəlməliyik. Biz güclərimizi birləşdirməliyik", - deyə K.Kennedi əlavə edib.

Panel iclasında çıxış edən Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi, Birləşmiş Millətlər Təşkilatı Baş katibinin keçmiş müavini, Çinin Almaniyadakı sabiq səfiri Vu Honqbo parçalanmış dünyanı bərpa etməyin ən uyğun yolunun bütün dünya insanlarının birləşməsi olduğunu deyib.

"Dünya parçalanır. Bunun qarşısını almağın yollarından biri müxtəliflikdir. Məlumdur ki, bir nəfərin yaratdığı problem yüzlərlə insana sirayət edir. Birləşmiş Millətlər Təşkilatı müsbət istiqamətdə bir sıra tədbirlər həyata keçirir. Ticarətin inkişafı vacib məsələlərdən biridir. Dünyanı bərpa edərək hər kəs bundan bəhrələnməlidir. Çünki yoxsulluq böyük təlatümlərə gətirib çıxara bilər. Mühit təmiz və aydın qurulmalıdır. İqtisadi təşkilatın qarşısında duran vacib məsələlər var. Dünya sülh və əmin-amanlıqla qurulmalıdır. Gələcək üçün bu vacib amildir", - deyə xüsusi nümayəndə vurğulayıb.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, Azərbaycan Cənubi Qafqaz regionuna sabitlik gətirdi. Azərbaycan-Ermənistan əlaqələrindəki istiləşməyə hamı şahiddir.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan Ermənistanla sülhün bərqərar edilməsində səylərini əsirgəmir. Azərbaycan heç bir parçalanmanın olmaması mühitində daha çox əməkdaşlığı təşviq edir. Azərbaycan öz öhdəliyinin üzərindən layiqincə gəlir. Cənubi Qafqazdakı təcrübəni dünyanın digər bölgələrinə yayılmasına çalışır.

H.Hacıyev qeyd edib ki, hələ də bir çox ölkələr COVID-19-un təsirinin qarşısını tam ala bilməyib. "Azərbaycan peyvəndlərin bərabər paylanması təşəbbüsü ilə çıxış etmişdi. Beynəlxalq təsisatların öhdəliklərini yerinə yetirməmələri qarşımızda duran problemlərdəndir. Beynəlxalq təsisatların, Avropa təşkilatlarının böhran yaşadığını görürük. Azərbaycan təşəbbüsləri ilə parçalanmış dünyanın bərpasına töhfəsini verəcək. Avropa təsisatları acınacaqlı vəziyyətdədir. Azərbaycan Avropa Parlamenti qarşısında heç bir öhdəlik daşımır. Azərbaycana qarşı mənfi hallarla rastlaşırıq", - deyə o əlavə edib.

Serbiyanın sabiq Prezidenti Boris Tadiç isə bildirib: "Yeni münaqişələrin qarşısını almağa çalışmalıyıq. Bütün vaxtımızı faciədə yaşamalı deyil, çıxış yolları axtarmalıyıq".

Təhsilin əhəmiyyətini qeyd edən sabiq prezident siyasətçilərin təlimatlanmasının vacibliyini vurğulayıb.

İspaniyanın sabiq xarici işlər naziri Ana Palasio isə deyib ki, qarşımızda duran əsas prioritetlərdən biri insanların hansı xalqdan, ölkədən olmasına baxmayaraq azad yaşaması, iqtisadi imkanlardan bəhrələnməsidir. Biz artıq bir-birimizi anlamalıyıq. Fərqliliklər üzə çıxmalıdır.

İclasda çıxış edən BMT Baş Assambleyasının 75-ci Prezidenti, Türkiyə Böyük Millət Məclisinin üzvü Volkan Bozkır diqqətə çatdırıb ki, parçalanan dünyanın yenidən birləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Biz bilməliyik ki, bu parçalanmanın səbəbləri nələrdir. Qarşımızdakı problemlərin həllinə siyasi yollarla xidmət etməliyik. Biz bütün dünyanın bərpası üçün düzgün nizamlanma barədə düşünməliyik.

BMT-nin rolunun yenidən danışılmalı olduğunu deyən Volkan Bozkır qeyd edib: "BMT çox mühüm təsisatdır. Hazırda onu əvəz edəcək başqa bir qurum yoxdur. Onun təsisatları əzmkar şəkildə çalışırlar. Lakin BMT münaqişələrin sülh yolu ilə həllinə heç bir töhfə vermir. Bu isə təsisata olan etimadı itirir".

Ermənistan-Azərbaycan münaqişəsindən də bəhs edən Volkan Bozkır bildirib: "Münaqişələr sülh yolu ilə həll edilməsə, hər bir ölkə fərdi şəkildə yol axtaracaq. Fransa keçmiş Minsk Qrupunun üzvü, Azərbaycanın dostu idi. Lakin Fransanın Ermənistana silah-sursat satması bu ölkəyə açıq dəstək idi".

BMT-nin Sivilizasiyalar Alyansının sabiq ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir vurğulayıb ki, hazırda dünyada xaos yaşanmaqdadır. Ksenofobiya, ayrı-seçkilik bizim cəmiyyəti bölür. Həyat, yaşam tərzi köklü şəkildə pisləşib. Addımlarımızı müharibədən daha çox sülhə doğru atmalıyıq. Bu, çox vacib elementdir. Addımlarımızın tərzini dəyişməliyik, daha çox yaradıcı tərəfdən yanaşmalıyıq. Ən önəmlisi isə odur ki, sülhlə bağlı həll yolları gündəmə gətirilməlidir.

Latviyanın sabiq Prezidenti Egils Levits Bakının zəngin keçmişə malik şəhər olduğunu söyləyib. Deyib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi üçün bu şəhər düzgün seçilmiş məkandır.

"İnanıram ki, bu mötəbər tədbir iqlim dəyişiklikləri ilə bağlı yeni müzakirələrə nəfəs gətirəcək və uğurla keçiriləcək", - deyə Egils Levits əlavə edib.

Qeyd edək ki, XI Qlobal Bakı Forumuna bir çox ölkələrin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Forumda 70-dən artıq ölkədən 350-dən çox qonaq iştirak edir.

Martın 16-dək davam edəcək Forumda COP28-in nəticələri və COP29-a hazırlıq məqsədilə qlobal müzakirələr aparılacaq, yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salınacaq, qarşıda duran çağırışların həlli yolları müzakirə olunacaq, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi problemlərinə toxunulacaq. Eyni zamanda, qlobal idarəetmədə hərbi və iqtisadi ittifaqların rolu, regional perspektivlər, Avropa İttifaqı və onun qonşuları ilə münasibətləri, gənclər siyasəti, qlobal çağırışlara qarşı davamlılığı artırmağın yolları, qeyri-bərabərlik, təbii ehtiyatların azlığı və miqrasiya məsələlərinə toxunulacaq, süni intellekt, dronlar və kibersilahlar dövründə yeni təhlükəsizlik nümunələri barədə müzakirələr aparılacaq.






## Nazir Neftçala və Oğuz rayonuna polis rəisi təyin etdi

***Neftçala və Oğuz Rayon Polis Şöbəsinə rəis təyin edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb. Əmrə əsasən, Sabunçu RPİ-nin 42-ci Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Emil Cavadov Neftçala Rayon Polis Şöbəsinin rəisi təyin edilib.

Nazirin digər əmri ilə, Nəsimi RPİ-nin əməliyyat işi üzrə rəis müavini, polis polkovnik-leytenantı Fərid Fətəliyev Oğuz Rayon Polis Şöbəsinin rəisi vəzifəsinə təyinat alıb.

***Murad İbrahimli***

## "Qohum evliliyini doğru hesab etmirəm" - Tahir Kərimli

***"Hesab edirəm ki, iki cəhətdən qohum evliliyi doğru deyil. Bir sıra dövlətlərdə yaxın qohumların evlənməyi baş vermir. Məsələn, Rusiyada ikiqat qardaş-bacı deyirlər. Bacı-qardaş münasibətləri ola biləcək şəxslərin evlənməyinə doğru baxmıram".***

Bunu "Unikal"a açıqlamasında deputat Tahir Kərimli deyib. Deputat təəssüflə bildirib ki, bir sıra xalqlarda, o cümlədən ölkəmizdə "göbək kəsdi" olur: "Bəzən uşaq doğulandan valideynlər məsələni həll edir ki, qohum olacayıq. Belə şeylər var. Digər tərəfdən belə fikir var ki, yaxın qohumlar arasında fiziki qüsurlu doğulan uşaqlar əksəriyyət təşkil edir. Öz müşahidələrimdən deyə bilərəm ki, belə hallar var. Mənəvi-psixoloji və tibbi nöqteyi-nəzərdən qohum evliliyini doğru hesab etmirəm. Bu məsələnin müzakirəsi zamanı hüquqi qadağaların qoyulmasından danışılıb. Burada bir az tərəddüd edirəm. Ona görə ki, cəmiyyət hələ buna hazır deyil. Bəlkə cəmiyyəti hazırlayandan sonra belə bir qayda və qanunun qoyulmasına ehtiyac yaranmayacaq. Böyük maarifləndirmə işi aparıla bilər".

***Anar Kəlbiyev***

## Xankəndidə yeni təyinat

***Xankəndi Şəhər Polis Şöbəsində yeni təyinat olub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə polis mayoru Yaqub Hüseynov Xankəndi Şəhər Polis Şöbəsinin xidmət üzrə rəis müavini təyin olunub.

Qeyd edək ki, Y.Hüseynov daha öncə Göygöl Rayon Polis Şöbəsində xidmət üzrə rəis müavini vəzifəsində çalışıb.

***Tural Əhmədov***

# İlham Əliyev BMT ilə bağlı sazişi təsdiqlədi



***Prezident İlham Əliyev Azərbaycanla Birləşmiş Millətlər Təşkilatı arasında Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının Bakıda keçirilməsinə dair sazişi təsdiqləyib.***

"Unikal" xəbər verir ki, dövlət başçısı bununla bağlı "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsi üçün Ev Sahibi Ölkəyə dair Saziş"in təsdiq edilməsi haqqında qanunu imzalayıb.

Sənəd 2023-cü il dekabrın 22-də Bakı şəhərində imzalanıb.

# "AŞPA Azərbaycana qarşı qərəzli mövqe sərgiləyir" - Hikmət Hacıyev

***Bölgədə sülhün bərqərar olması üçün səylərimizi əsirgəmirik.***

"Unikal" xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev XI Qlobal Bakı Forumunda "Parçalanmış Dünyanın Bərpası" mövzusunda keçirilən panel iclasında deyib.



"Cənubi Qafqazı münaqişələrdən azad etmək üçün səylər göstərməkdəyik. Post-sovet məkanında bir sıra münaqişələrin alovlanmasına şahidlik etmişik. Biz Qarabağı azad etməklə Cənubi Qafqazda stabilliyi bərqərar etmiş oluruq. Çalışırıq ki, bölgədə sülhün bərqərar olması üçün səylərimizi əsirgəməyək",- H.Hacıyev əlavə edib.

Prezidentin köməkçisinin sözlərinə görə, AŞPA Azərbaycana qarşı qərəzli mövqe sərgiləyir: "AŞPA islamofobiyanı təşviq edir. Azərbaycan stabil region qurulması üçün çalışır".

# Dünyada vəziyyət faciəvi şəkildə dəyişməkdədir - Nazir

***Qlobal çətinliklər bir günə ərsəyə gəlməyib, onlar onilliklər ərzində formalaşıb. Bu nəticəyə gəlib çıxmaq üçün müəyyən səbəblər var. Biz bəşəri dəyərlərə əsaslanan təsisatlara güvənirik. Hətta mən düşünürəm ki, bu da kifayət deyil.***



"Unikal" xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov XI Qlobal Bakı Forumu çərçivəsində keçirilən "Müharibə və sülh: Realpolitikin geri dönüşü" mövzusunda panel iclasında çıxışı zamanı deyib.

Nazir bildirib ki, bu təşkilatlar, ilk növbədə, özlərində dəyişiklər etməlidir. "Vəziyyət faciəvi şəkildə dəyişməkdədir. Bugünkü dünya daha çox mürəkkəbliklərlə üzləşir. Bu ,təkcə qarşıdurmalarla məhdudlaşmır", - deyə C.Bayramov vurğulayıb.

# Azərbaycanda rəis rüşvət alarkən saxlanıldı

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Mənzil İstismar Departamentinin Ağdam Rayon Mənzil kommunal istismar sahəsinin rəisi Valeh Abdullayevin qanunsuz hərəkətləri ilə bağlı keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb. Əməliyyat-istintaq tədbirləri ilə Valeh Abdullayevin müxtəlif şəxslərin işlə təmin olunması, təqaüd yaşına çatanların işdən çıxarılmaması, faktiki olaraq işə gəlməyən şəxslərə əmək haqqı verilməsinə şərait yaradılması, təmsil etdiyi qurumun balansında olan mənzillərin başqa şəxslərin istifadəsinə verilməsi və digər bu kimi qanunsuzluqlar müqabilində onlardan təkrarən rüşvət istəməsinə əsaslı şübhələr müəyyən edilib. Valeh Abdullayev tələb etdiyi pul vəsaitlərini vətəndaşlardan alarkən cinayət başında yaxalanıb. Sadalanan qanunsuz əməllər əməliyyat-axtarış tədbirləri zamanı qeydə alınan videogörüntülər, Valeh Abdullayevin xidməti otağına keçirilmiş baxış nəticəsində götürülmüş sənədlər və digər sübutlarla təsdiqini tapıb. İlkin sübutlar əsasında Valeh Abdullayev Cinayət Məcəlləsinin 311.3.2 (rüşvət alma təkrar törədildikdə) və 312-1.1 (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə - nüfuz alveri) maddələri ilə şübhəli şəxs qismində tutulmaqla ona həmin maddələrlə ittiham elan edilib, barəsində istintaq orqanının vəsatəti



və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə ev dustaqlığı və vəzifədən kənarlaşdırma növündə qətimkan tədbirləri seçilib.

Hazırda qeyd edilən qanunsuz əməllərin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi və digər halların yoxlanılması istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

# Əli Əsədov daha bir görüş keçirdi

***Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 14-də BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru Vinni Byanyima ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə V.Byanyimanın XI Qlobal Bakı Forumunda iştirakının önəmi qeyd olunub.

Azərbaycanın BMT-nin müxtəlif təsisatları, ö cümlədən UNAIDS ilə yaxından əməkdaşlıq etdiyi və onların fəaliyyətini dəstəklədiyi vurğulanıb.

İİV/QİÇS ilə mübarizənin Azərbaycanın milli səhiyyə strategiyasının əsas istiqamətlərindən biri olduğu bildirilib.

Diqqətə çatdırılıb ki, 2006-cı ildən başlayaraq Nazirlər Kabineti tərəfindən hər 5 illik dövr üçün İİV/QİÇS ilə mübarizə üzrə Tədbirlər Proqramı qəbul edilir. Proqramların hazırlanması Ümumdünya Səhiyyə Təşkilatı, UNAIDS və Qlobal Fondun tövsiyələri əsasında və onların dəstəyi ilə həyata keçirilir.

Görülən tədbirlər nəticəsində Azərbaycanın yoluxma səviyyəsi aşağı olan ölkələr sırasında yer aldığı qeyd edilib.

Həmçinin Azərbaycan Respublikası ilə UNAIDS arasında əməkdaşlıqla bağlı məsələlər nəzərdən keçirilib.

Görüşdə Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev iştirak edib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qazet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Magistraturaya qəbulun nəticələri açıqlandı - 3 nəfər 96 bal topladı

***Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin magistraturalarına 11 fevral 2024-cü il tarixində keçirilmiş qəbul imtahanının yekun nəticələrini elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə DİM-dən məlumat verilib. Xatırladaq ki, imtahanının qapalı və kodlaşdırıla bilən açıq tipli tapşırıqlar (95 tapşırıq) üzrə nəticələri fevralın 13-də olan olunub. Hazırda isə xarici dil fənləri üzrə esse tapşırıqlarının nəticələri daxil olmaqla yekun imtahan balı təqdim olunub. İştirakçılar qapalı və kodlaşdırıla bilən tapşırıqlar üzrə 95, esse üzrə isə 5 bal toplaya bilərlər.

Bakalavrlar imtahan nəticələri ilə buradan tanış ola bilərlər. İmtahan nəticələri haqqında məlumatı, həmçinin mobil operatorlar (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə "iş nömrəsi"ni 7727 nömrəsinə gön-




dərməklə də öyrənmək mümkündür.

İmtahanda 3 nəfər 96 bal toplamaqla mümkün olan ən yüksək nəticəni göstərib.

Qəbul imtahanındakı nəticələri müsabiqə şərtlərini ödəyən bakalavrlar ixtisaslaşma seçiminə buraxılırlar.

İxtisaslaşma seçimi "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" ilə tənzimlənir (həmin cədvəl "Magistr" jurnalının növbəti sayında dərc ediləcək).

İmtahan nəticələri ilə əlaqədar müraciətlərə baxılması üçün DİM tərəfindən 18 mart 2024-cü il tarixindən etibarən telefon əlaqəsi vasitəsilə apellyasiya prosesi təşkil ediləcək.

Apellyasiya komissiyasına müraciət etmək istəyənlər 15 mart saat 10:00-dan 17 mart saat 17:00-dək DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan apellyasiya üçün müraciət edə bilməyəcəklər.

Bir bakalavrın ərizəsi (müraciəti) üzrə ən çox 15 dəqiqə müzakirə aparıla bilər. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılır.

Öncədən məlumat verildiyi kimi, yalnız tapşırıqların məzmunu və yazı işi ilə bağlı müraciətlər nəzərə alınacaq.

10_27 IYUl-QARA.qxd 3/14/2024 9:53 PM Page 6



# Azərbaycan Prezidentindən mühüm mesajlar

## İlham Əliyev: "Ermənistanla sülhə heç vaxt görünmədiyi qədər yaxınıq"

***Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 14-də “Parçalanmış dünyanın bərpası” mövzusunda XI Qlobal Bakı Forumu işə başlayıb.***

”Unikal” xəbər verir ki, Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi. Prezident İlham Əliyevin çıxışı zamanı sabitlik və təhlükəsizlik məsələləri ilə bağlı mühüm mesajlar verib:

“Dünya sürətlə dəyişir. Əfsuslar olsun ki, yeni qeyri-sabitlik və qarşıdurma ocaqları meydana çıxır. Ötən ilin martında müzakirə etdiklərimizlə bu gün müzakirə etdiklərimizi müqayisə etsək nəzərəçarpan dəyişikliklər görərik. Burada geosiyasi dəyişikliklər baş verir. Qeyd etdiyim kimi, ötən görüşümüzdən bu yana dünyada, eləcə də regionumuzda çox hadisələr baş verib. Regionumuzdakı dəyişikliklər lokal xarakterli kimi görünə bilər, əslində isə, zənnimcə, onların daha geniş fəsadları var. Çünki bir il bundan əvvəl burada ötən görüşümüzdən bu yana baş verən əsas geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasıdır. Bu, həqiqətən də çox ciddi geosiyasi dəyişiklikdir ki, fikrimcə həll olunmayan kimi görünən münaqişələrin həllinə çox müsbət təsir göstərəcək. Uzun illər ərzində biz münaqişənin sülh yolu ilə həllini tapmaq üçün fəaliyyət göstərdik. Uzun illər ərzində, o cümlədən İkinci Qarabağ müharibəsindən əvvəl hər il burada keçirilən görüşlərimizdə biz hər zaman ədalətsizlik, işğal, beynəlxalq hüququn pozulması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl olunmaması barədə danışırdıq və bu barədə danışmağa davam edirdik, çünki bu məsələnin beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmasını istəyirdik. Biz ədalətin zəfər çalmasını istəyirdik, əfsuslar olsun ki, bu, sülh yolu ilə baş vermədi.

Münaqişənin niyə sülh yolu ilə həll olunmamasının əsas səbəbi bu və həmçinin sözsüz ki, Ermənistan hökumətlərinin-1990-cı illərin əvvəllərindən başlayaraq bu günə kimi müxtəlif hökumətlərin qeyri-konstruktiv mövqeyi idi. Dünyanın aparıcı paytaxtlarından bizə mütəmadi olaraq göndərilən başqa bir mesaj da var idi ki, münaqişənin hərbi yolla həlli yoxdur. Dedik yaxşı, biz bununla razılaşa bilərik, bəs alternativ nədən ibarətdir. Əgər alternativ işğalla razılaşmaq, bizim beynəlxalq səviyyədə tanınan ərazilərimizin təqribən 20 faizində separatçı rejimin mövcudluğu ilə razılaşmaqdırsa, bu, bizim razılaşa biləcəyimiz məsələ deyil.

Biz bir halda hərbi yolla həllin olmadığı ilə razılaşa bilərik ki, siz Minsk qrupu həmsədrləri, dünyanın aparıcı ölkələri, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri Ermənistan işğalçı qüvvələrini bizim torpaqlarımızdan geri çəkilməyə məcbur edəsiniz. Siz, Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qəbul edənlər bu qətnamələrə əməl olunmasını təmin etməlisiniz, əks halda münaqişə heç vaxt həll olunmayacaq.

Əfsuslar olsun ki, bizim münaqişənin sülh yolu ilə həllini tapmaq istiqamətində bütün cəhdlərimiz uğursuz oldu, səbəbini isə mən artıq izah etdim. Beləliklə, münaqişənin hərbi-siyasi yolla həlli faktiki olaraq göstərir ki, sülhə nail olmaq üçün bəzən hərbi variantdan istifadə edilməlidir. İndi baş verən də məhz budur. İndi biz Ermənistanla heç vaxt olmadığımız qədər sülhə yaxınıq. Cənubi Qafqazın müstəqillik tarixində heç vaxt sülh bu qədər yaxın olmayıb. Bu, İkinci Qarabağ müharibəsinin nəticəsidir. Bu, bizim ötən ilin sentyabrında 24 saatdan da az vaxt ərzində həyata keçirdiyimiz antiterror əməliyyatının nəticəsidir ki, Azərbaycanda separatçılığa birdəfəlik son qoyduq və suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etdik.



Məhz buna görə son 3-4 il ərzində Azərbaycanda baş verənlərin təkcə lokal xarakter daşıyan bir məsələ olmadığını deyirəm. Bunun artıq çox müsbət təsiri var və söhbət təkcə Cənubi Qafqazdakı vəziyyətdən getmir. Hesab edirəm ki, bu, həll olunmayan kimi görünən münaqişələrin həlli üçün bir model olaraq istifadə edilə bilər. Lakin ən başlıca məsələ, əlbəttə ki, bu, beynəlxalq hüququn alilik prinsipinin tətbiq olunması ilə baş tutmalıdır. Beynəlxalq hüququn normaları bizim tərəfimizdə idi, Azərbaycan qeyri-qanuni işğala, etnik təmizləməyə və soyqırımına məruz qalmışdı. Bütün bunlar hamımıza yaxşı məlum olan tarixi faktlardır. Biz ədaləti və beynəlxalq hüququ özümüz bərpa etdik. Bizə heç kəs kömək etmədi, biz bunu özümüz etdik.

Münaqişənin hərbi yolla həllindən qaçmaq mümkün idimi? Bəli. Dünən biz İdarə Heyətinin üzvləri ilə bu məsələni geniş müzakirə etdik və mən azacıq olaraq pərdəarxası məqamları onlarla bölüşdüm. 2018-ci ildə Ermənistan hökumətində dəyişiklik baş verəndə razılığa gəlmək imkanı var idi. Ermənistanın yeni hökuməti bizi əmin etdi ki, onlar beynəlxalq hüquqa uyğun davranacaq və əraziləri geri qaytaracaqlar. Bizim belə gözləntilərimiz var idi və əgər o vaxt Ermənistanın yeni hökuməti indiki kimi davransaydı, onda suverenliyimizin güc yolu ilə bərpa edilməsinə ehtiyac qalmazdı.

Lakin, əfsuslar olsun ki, 2019-cu ildə Ermənistanın yeni rəhbərliyi “Azərbaycan separatçılarla danışıqlar aparmalıdır, sülh müqaviləsinin əsasını təşkil edən bu vaxta kimi olan bütün məsələlər sıfırlanmalıdır və hər şey yenidən başlanmalıdır, Ermənistan işğal olunmuş ərazilərin bir santimetrini belə qaytarmayacaq” kimi tamamilə qəbuledilməz təkliflər irəli sürdü. Bundan əlavə, Ermənistanın baş nazirinin məşhur “Qarabağ Ermənistandır” şüarı səsləndi. Birincisi, bu, beynəlxalq hüquqa tamamilə zidd idi və ikincisi, bizim torpaqları əbədi saxlayacağını hesab edən ölkə üçün həddindən artıq iddialı bir addım idi.

Beləliklə, biz 2020-ci ilin sentyabr-noyabr aylarında onlara dərs vermək məcburiyyətində olduq və düşündük ki, bu dərs onlara kifayət edəcək və onlar başa düşəcəklər ki, xarici qüvvələrə güvənərək başqa ölkənin torpaqlarını işğal altında saxlamağın vaxtı artıq bitib.

Son 3-4 ildə sülhə nail olmaq imkanı var idimi? Bəli, var idi. Bunun üçün Ermənistan sülh müqaviləsinin tərəfimizdən hazırlanmış layihəsinə konstruktiv yanaşmalı və bu sülh müqaviləsinə dırnaqarası “dağlıq qarabağ respublikasının” statusunun daxil edilməsi üzərində israr etməməli idi. Birincisi, belə bir respublika mövcud deyil. O, ancaq onların xülyalarında və mifologiyasında mövcuddur. İkincisi də bizim mövqeyimiz yenə də beynəlxalq hüquqa tamamilə uyğun idi. Dövlətlərarası sazişlərdə daxili siyasət məsələləri yer almamalıdır.

2020-ci il noyabrın 10-da Ermənistanın imzalamaq məcburiyyətində olduğu kapitulyasiya aktına əsasən onlar o zaman bizim nəzarətimizdə olmayan Qarabağın qalan ərazilərindən işğalçı qüvvələrini çıxarmaq öhdəliyini üzərinə götürdülər. Lakin 3 il ərzində onlar bunu etmədilər. Onlar nəinki on beş minlik hərbi kontingentini ərazidən çıxarmadı, onlar İkinci Qarabağ müharibəsindən sonra kommunikasiya yolları üzərində nəzarətimizin olmadığından faydalanaraq silah, mina və sursatları qaçaqmalçılıq yolu ilə Qarabağa göndərdilər. Kommunikasiya yolları üzərində nəzarət bizə keçdikdən sonra qaçaqmalçılıq dayandı. Buna baxmayaraq, sonuncu antiterror əməliyyatı zamanı bizim ağır texnika və zirehli maşınlar da daxil olmaqla məhv edilmiş və qənimət olaraq götürülmüş hərbi sursatların dəyəri bir milyard dollara yaxın olmuşdur. İkinci Qarabağ müharibəsi zamanı hərbi qənimətlər və məhv edilmiş texnikanın, sursatın dəyəri 5 milyard dollara yaxın idi. Sual olunur ki, Ermənistan bütün bu pulu haradan əldə edib? Əlbəttə, aydındır ki, bizə qarşı istifadə etdikləri bütün silahlar onlara təmənnasız verilmişdir.

İndi isə Qarabağ məsələsi öz həllini tapdıqdan sonra biz sülhə çox yaxınıq. Biz belə hesab edirik. Azərbaycan sülh prosesini davam etdirməyə hazırdır. Hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində görüşlər bərpa olunub və indi biz düşünürük ki, sülhə nail olmaq mümkündür. Biz bunu istəyirik. Biz tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik və indi regionda düşmənçiliyə son qoymaq vaxtı yetişib.

Diqqətinizə çatdırmaq istədiyim bir məsələ bizim antiterror əməliyyatı ilə bağlı beynəlxalq reaksiyadır. Əksər hallarda bu reaksiya tamamilə adekvat olmuşdur. Beynəlxalq birlik, müxtəlif ölkə və beynəlxalq təşkilatlar öz açıqlamalarında, habelə bizimlə pərdəarxası təmaslarda qeyd edirlər ki, onlar bizim bunu etmək məcburiyyətində qaldığımızı anlayırlar. Anlayış var ki, antiterror əməliyyatından öncə Ermənistan iki qırmızı xəttimizi keçib və ümumilikdə beynəlxalq birliyin buna reaksiyası tamamilə müsbət olmuşdur.

Bəzi təfərrüatlar, sentyabrın əvvəlində nələrin baş verdiyi və antiterror əməliyyatının niyə sentyabrda həyata keçirilməsi haqqında sizə məlumat vermək istəyirəm. Çünki sentyabrın əvvəlində Ermənistanın baş naziri separatçı rejimə dırnaqarası müstəqillik günü münasibətilə təbrik məktubu göndərdi. Bunu gözləmirdik və bu, bizim üçün mənfi bir sürpriz oldu. Çünki Ermənistanın həmin baş naziri 2022-ci ildə Praqadakı görüşdə ictimai şəkildə Azərbaycanın ərazi bütövlüyünü tanımışdı və bir neçə dəfə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının olmadığını vurğulamışdı.

Yaxşı, o zaman bu təbrik nəyə lazım idi? Bu təbrik separatçılara ünvanlanmışdı və bu, Azərbaycanın suverenliyinin pozulması idi, tamamilə ziddiyyətli və qəbuledilməz hərəkət idi. Daha sonra sentyabrın 9-da dediyim kimi, yalnız müəyyən insanların xülyalarında mövcud olan dırnaqarası dağlıq qarabağ respublikası dırnaqarası prezident seçkiləri təşkil etdi və bu, növbəti qırmızı xətt idi.

Beləliklə, bu, bizim son həddimiz idi və antiterror əməliyyatının həyata keçirilməsinə səbəb oldu. Bu əməliyyat bir neçə saat davam etdi və 23 saatdan sonra separatçılar təslim oldular. Mülki əhali arasında itki olmadı və separatçılar təslim olan kimi biz əməliyyatı dayandırdıq və bu, həmin tarixçənin sonudur.

Burada beynəlxalq reaksiya haqqında danışarkən mən bir ölkənin mövqeyini təəssüflə qeyd etməliyəm. Bu mövqe beynəlxalq ictimaiyyətin yanaşması ilə ziddiyyət təşkil edir. Bu ölkə Fransadır. Mən buna olduqca təəssüf edirəm, çünki 1990-cı illərin əvvəlindən Azərbaycan və Fransa arasında münasibətlər müsbət istiqamətdə inkişaf edib. Çoxsaylı yüksək səviyyəli səfərlər baş tutub, biznes sahəsində fəal təmaslar olub, iki ölkənin 13 şəhəri digəri ilə qardaşlaşma münasibətlərinə malik olub.

Lakin Fransa hökumətinin İkinci Qarabağ müharibəsinə və antiterror əməliyyatına münasibəti tamamilə qeyri-adekvat oldu. Onlar tərəfindən bu məsələlərin BMT Təhlükəsizlik Şurasına çıxarılmasına və Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsinə beş dəfə cəhd edilib - yəni, etmədiyimiz bir əmələ görə. Biz beynəlxalq hüquqa zidd olan addım atmamışıq. Beş cəhdin hər biri uğursuz oldu, çünki Təhlükəsizlik Şurasının digər üzvləri bunu dəstəkləmədi. Daha sonra Avropa İttifaqı çərçivəsində Azərbaycana qarşı sanksiyaların tətbiqinə bir neçə cəhd edildi. Həmin cəhdlər də uğursuz oldu. Avropa İttifaqı ölkələrinin əksəriyyəti bunu dəstəkləmədi.

Təəssüflər olsun ki, bundan sonra baş verənləri normal dərk etmək mümkün deyil. Fransada, Azərbaycanın şəhərlərinin biri ilə qardaşlaşmış Evian şəhərində vandalizm aktı baş verdi. Azərbaycan şairi Natəvanın heykəli vandalizmə məruz qaldı. Sizə həmin heykəli, üzərindəki qırmızı boyanı və heykəlin qırılmış burnunu təsvir edən şəkilləri nümayiş etdirmək istəyirəm. Bu hadisə Fransada baş verdi və buna səbəb BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqında Azərbaycanı cəzalandırmaq cəhdlərinin uğursuz olması idi.

Bu hadisədən sonra hakimiyyət orqanları boyanı yumaq və heykəli bərpa etmək əvəzinə onu, sadəcə, bükdülər və heykəl belə bükülmüş vəziyyətdə bir və ya iki ay qaldı. Vandalizmi dayandırmaqla bağlı bu ölkədəki səfirliyimiz və digər kanallarla Fransa hakimiyyət orqanlarına, Evian şəhərinin meriyasına müraciətlər edildi. Çünki heykəlin belə bükülmüş vəziyyətdə saxlanılması və hətta bu boyanın yuyulmasına cəhdin belə edilməməsinin özü vandalizm aktıdır. Nə Fransa hökuməti, nə də Evian meriyasının rəsmiləri tərəfindən buna heç bir reaksiya verilmədi. Belə olan halda biz israr etdik ki, bu heykəl oradan təxliyə edilsin. Çünki bunu özümüzə təhqir hesab etdik. Bu, bizi alçaltmaq demək idi. Bir çox hallarda özünü mənəvi lider kimi qələmə verən Fransa kimi bir ölkədə belə hallar qəbuledilməzdir. Heykəlin Evian şəhərindən Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzinin qarşısında olan bağçaya təxliyə edilməsi üçün bizə bir neçə ay lazım oldu və hazırda Natəvanın abidəsi oradadır”.

10_27 IYUl-QARA.qxd 3/14/2024 9:53 PM Page 7



# XİN Avropa Parlamentinin qətnaməsini qərəzli adlandırdı



***Avropa Parlamentində "Avropa İttifaqı və Ermənistan arasında daha yaxın əlaqələr və Azərbaycanla Ermənistan arasında sülh sazişinə ehtiyac" adlı martın 13-də qəbul edilmiş qətnamə əsassız və qərəzli olmaqla yanaşı, ölkəyə qarşı növbəti ikili standartların bariz nümunəsidir.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib.

Avropa Parlamentində Ermənistan və erməni lobbisinin təsiri altında olan bir sıra dairələr tərəfindən irəlilədilən bu qətnamə, "sülhün təşviq edilməsi" kimi təqdim olunmasına və guya Avropa İttifaqı-Ermənistan münasibətlərinə həsr olunmasına baxmayaraq, bütün faktların saxtalaşdırıldığı Azərbaycana qarşı qarayaxma kampaniyasının tərkib hissəsidir.

Qətnamədə beynəlxalq əlaqələrin mahiyyətinə zidd olaraq siyasi etik normalardan kənara çıxan cəfəng və təhqiramiz ifadələrin, eləcə də Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı açıq pozuntu dolu fikirlərin əks olunması qətnaməni irəli sürmüş Avropa Parlamenti üzvlərinin əsl mahiyyətini izah edir.

Avropa Parlamenti Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə müdaxilə əvəzinə Avropanı bürüyən daha ciddi problemlər, o cümlədən irqi ayrı-seçkilik, İslamofobiya, ksenofobiya, ekstremizm və miqrantlara münasibətdə qeyri-insani davranış kimi məsələlərlə məşğul olsa daha faydalı quruma çevrilər.

Avropa Parlamenti üzvlərinin diqqətinə bir daha çatdırırıq ki, bəyan etdiyi dəyərlərlə heç bir əlaqəsi olmayan bu kimi qətnamələr Avropa Parlamentinin bir qurum kimi rolunu tamamilə heçə endirir.

# İcma: "Bu qətnamə regionda gərginliyi artırmaq məqsədi güdür"

***"Qərbi Azərbaycan İcması Avropa Parlamentinin irqçi yanaşmadan çıxış edərək bu gün qəbul etdiyi, regionda gərginliyi artırmaq məqsədi güdən növbəti anti-Azərbaycan qətnaməsini sərt şəkildə qınayır".***

"Unikal" xəbər verir ki, bu barədə İcmanın yaydığı bəyanatda bildirilib. Qeyd edilib ki, Avropa Parlamentində oturan neo-səlibçilər Ermənistanı hərbiləşdirməyə çağırmış və əsassız iddialarla Azərbaycana böhtan atmışlar. Əslində, müəyyən dairələrin əlində alət olan korrupsioner, irqçi ünsürlər yığıntısı olan Avropa Parlamenti Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə ədalətin zəfər çalmasından qəzəbini gizlədə bilmir.

"Son dövrlər Ermənistan və Azərbaycan arasında müşahidə olunan nisbi sabitlik, iki dövlət arasında baş vermiş yüksək səviyyəli təmaslar və Almaniyanın federal Kanslerinin səyləri fonunda Avropa Parlamentinin bu qətnaməni qəbul etməsi təxribatçı addımdır və regional dinamika baxımından tamamilə yanlış siqnal verir. Avropa Parlamenti bu cür əbəs oyunlar yerinə Ermənistandan və əvvəllər işğal olunmuş Azərbaycan torpaqlarından bir milyondan artıq azərbaycanlının qovulmasına, orada azərbaycanlıların mədəni irsinin, mindən çox azərbaycanlı yaşayış məntəqəsinin dağıdılmasına, minlərlə mülki azərbaycanlının qətliamına indiyədək niyə susduğuna dair izahat verməlidir. Ermənistan tarixdən dərs çıxararaq həmin bədxah qüvvələrin təxribat və təhriklərinə uymamalıdır. Ermənistan həmin qüvvələrlə və bu kimi "sənədlərlə" özü arasında məsafə qoymalı, qovulmuş Qərbi azərbaycanlıların geri qayıtmasına şərait yaratmaqla Azərbaycanla sülh əldə etməyə çalışmalıdır", - bəyanatda vurğulanıb.

# Ermənistan tərəfindən işğal edilmiş 4 kənd bu tarixdə qaytarıla bilər

## Ədalət Verdiyev: "Əks halda, Ermənistanın Azərbaycan ərazilərini 30 ildən artıq müddətdə işğal altında saxlaması səbrimizi tükəndirə bilər"

***Hərbi ekspert Ədalət Verdiyev "Unikal"a müsahibə verib. O, Ermənistanın təxribat cəhdlərindən, Azərbaycanın işğal altında olan 8 kəndinin nə zaman qaytarılacağından, Ermənistanın "Zvartnots" hava limanından Rusiya hərbçilərinin çıxarılması ilə bağlı çağırışından və Rusiyanın bu ölkəni necə cəzalandıra biləcəyindən danışıb.***

***-Ədalət müəllim, bu günlərdə Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonunun Əsrik yaşayış məntəqəsi istiqamətindəki mövqelərimiz üzərində kvadrokopter vasitəsi ilə kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib. Bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan pilotsuz uçuş aparatı xüsusi texniki vasitələrlə zərərsizləşdirilib. Bununla yanaşı, ara-sıra sərhəddə atəşkəsi pozmalarının da şahidi oluruq. Ermənistan tərəfi bu addımları ilə sərhəddə təxribat törətməyə çalışır?***

-Ermənistanın son 1 ayda həm Qafan istiqamətindən atəşkəsi pozması, həm də Tovuz rayonunun Əsrik yaşayış məntəqəsi istiqamətindəki mövqelərimiz üzərində kvadrokopterlə kəşfiyyat xarakterli uçuşlara cəhd etməsi onların bu günə qədər başına gələn fəlakətlərdən doğru nəticə çıxarmadığını göstərir. Ermənistanın maraqlarına uyğun gəlməyən bu fəaliyyətlərin regiona aid olmayan qüvvələr, xüsusilə Fransa tərəfindən təşkil edildiyi ehtimalı çox böyükdür. Onların kvadrokopterlə uçuş keçirməsinin məqsədi var. Bu uçuş Azərbaycan Ordusunun mövqeləri, atəş vasitələrinin yerləşdiyi ərazilər və mümkün təxribatlar üçün uyğun ərazinin seçilməsi məqsədi ilə həyata keçirilib. Bu fəaliyyətlər Ermənistana heç bir dividend gətirməyəcək.

***-Azərbaycanın 8 kəndi hələ də işğal altındadır. Bununla bağlı danışıqların intensivləşdiyinin şahidi oluruq. Yaxın vaxtlarda bu istiqamətdə hansı yeniliklərin şahidi ola bilərik?***

-Azərbaycanın 8 kəndindən ən azı 4-ü, yəni, birbaşa esklav olmayan kəndlərimizin qaytarılması yaxın müddətdə gözlənilir. Böyük ehtimalla bu proseslər aprel ayı ərzində həyata keçiriləcək. Əks halda, Ermənistanın Azərbaycan ərazilərini 30 ildən artıq müddətdə işğal altında saxlaması səbrimizi tükəndirə bilər. Bunun da növbəti gərginlik yaratması mütləqdir. Bu gərginliyin nəticəsinin nə olacağı isə hamıya məlumdur.

***-Bu günlərdə Ermənistan "Zvartnots" hava limanından Rusiya hərbçilərinin çıxarılması ilə bağlı Moskvaya rəsmi müraciət ünvanlayıb. Onlar qeyd ediblər ki, hava limanında rusiyalı sərhədçiləri ermənistanlı hərbçilərin əvəz etməsi üçün hər cür imkanları var. Ermənistanın öz sərhədini qorumaq potensialı varmı?***

-Ermənistanın Rusiya sərhədçilərini "Zvartnots" hava limanından çıxarmaq barədə qərarı kiçik də olsa, daxili auditoriyaya suverenlik barədə mesaj ötürmək məqsədi daşıyır. Bəlkə də adıçəkilən hava limanından öz sərhədçilərini çıxaracaq, amma Rusiyanın Gümrü şəhərindəki 102-ci hərbi bazasını və sərhəd qoşunlarını Ermənistandan rahatlıqla çıxaracağını gözləmirəm. Digər tərəfdən, Ermənsitanın keçmiş sərhəd qoşunları komandanı açıq mətnlə etiraf edir ki, onların öz sərhədlərini qorumaq potensialı yoxdur. Bunun üçün Ermənistan təxminən 15 minə yaxın qoşun səfərbər etməli, onları hazırlamalı və təminat-təchizatını həyata keçirməlidir. Bu isə Ermənistan büdcəsinə əlavə yükdür. Eyni zamanda, bu qədər heyətin birdənbirə orduya cəlb edilməsi Ermənistanın imkanları xaricindədir.



***-Yuxarıda da qeyd etdiyimiz kimi Ermənistan-Rusiya münasibətlərinin gərginləşdiyini görürük. Burada Fransanın da təsirləri özünü açıq-aydın göstərir. Bunların fonunda Rusiya Ermənistanı necə cəzalandıra bilər?***

-Rusiyanın Ermənistanı cəzalandırması üçün kifayət qədər geniş imkanları və mexanizmləri mövcuddur. Bunlardan birincisi Rusiya ərazisində yaşayan erməni əhalisi ilə bağlıdır. Onların əksəriyyəti qeyri-leqal şəkildə Rusiya ərazisində çalışır və onlara qarşı müəyyən məhdudiyyətlər tətbiq oluna bilər. Həmçinin, Ermənistan ərazisində Rusiyaya məxsus böyük yatırımlar var. Eyni zamanda, qaz paylayıcılar, elektrik şəbəkəsi, atom elektrik stansiyası və s. tamamilə Rusiyanın nəzarətindədir. Digər tərəfdən, Rusiyanın hərbi bazasının Ermənistan ərazisində müəyyən cəzalandırma tədbirləri həyata keçirməsi də mümkündür. Ermənistan hərbi baxımdan Rusiyadan qırılmağa çalışsa da, iqtisadi baxımdan bu addımı atması qeyri-mümkündür. Ona görə ki, Rusiya Ermənistan üçün əsas ixrac bazarıdır. Ermənistanın silahlanmasında mövcud olan vasitələrin əksəriyyəti Rusiya istehsalıdır. Onların sursatları, avadanlıqları, ehtiyat hissələri və servisi Rusiya hesabına həyata keçirilir. Bu baxımdan, Ermənistan üçün Rusiyadan uzaqlaşmaq elə də asan olmayacaq. Rusiya KTMT-nin cənub qanadı olan Ermənistanı rahatlıqla Fransaya güzəştə getməyəcək. Bu onu göstərir ki, Ermənistan hazırda Rusiyanın, Fransanın, İranın, ABŞ-ın və Hindistanın geosiyasi maraqlarının toqquşduğu bir məkana çevrilib. Belə bir mənzərəni digər ölkələrdə də izləmişik. Xüsusilə Suriya və Liviyanı qeyd etmək istərdim. Onların hansı aqibətlə üzləşdiyi faktdır. Digər tərəfdən, Ermənistanın bu gün Qərbə üz tutması nəticə etibarı ilə Ukrayna və Gürcüstan ssenarisindən çox da fərqlənməyəcək.

***Anar Kəlbiyev***

# Bayramqabağı yeni bahalaşma dalğası gözlənilir

## Hökumətin monopoliyaya qarşı apardığı mübarizəsi inhisarçıların dirənişi qarşısında aciz qalıb

***2024-cü ilin fevral ayında istehlak qiymətləri indeksi 2023-cü ilin fevral ayına nisbətən 100,8 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 99,7 faiz, qeyri-qida məhsulları üzrə 101,4 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 102,3 faiz təşkil edib. Bu barədə Dövlət Statistika Komitəsi (DSK) məlumat yayıb.***

Bildirilib ki, 2024-cü ilin fevral ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,6 faiz, yanvar-fevral aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 101,3 faiz təşkil edib.



2024-cü ilin fevral ayında qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,7 faiz, yanvar-fevral aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 100,2 faiz təşkil edib.

Cari ilin fevral ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından daha çox bahalaşma düyünün, qoyun ətinin, təzə balığın, kəsmiyin, kərə və zeytun yağının, narinqinin, bananın, almanın, armudun, heyvanın, narın, kələmin, xiyarın, pomidorun, balqabağın, çuğundurun, sarımsağın, soğanın, şəkərin, arağın, ucuzlaşma isə əsasən qarabaşaq yarmasının, yumurtanın, süfrə marqarininin, günəbaxan və qarğıdalı yağlarının, portağalın, yerkökünün qiymətlərində müşahidə olunub.

Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

2024-cü ilin fevral ayında qeyri-qida malları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, yanvar-fevral aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 101,6 faiz təşkil edib.

Fevral ayında əvvəlki ayla müqayisədə qeyri-qida məhsullarından bahalaşma əsasən plastik pəncərələrin, kəsilmiş taxtaların, ucuzlaşma isə mobil telefonların və yazı kağızlarının qiymətlərində müşahidə olunub. Digər qeyri-qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Bəs görəsən növbəti günlərdə yenidən bahalaşma olacaqmı? Axı qarşıdan Novruz bayramı gəlir. Nəzərə alsaq ki, bayramlar ərəfəsində qiymət artımı Azərbaycan reallığında adi haldır, onda bahalaşma ehtimalı real görünür. Elə iqtisadçı-ekspert Elşad Məmmədov da bu günlərdə bakupost.az-a açıqlamasında bunu istisna etməyib. Sitat: "Novruz bayramı ərəfəsində ənənəvi qiymət artımını gözləmək olar. Bu o demək deyil ki, əhalinin əlində çoxlu pul vəsaiti var və ona görə qiymətlər artır. Bu tamamilə başqa amillərlə bağlıdır".

O qeyd edib ki, inhisarçılıq meyilləri, xüsusilə də istehsalçıların alıcılara birbaşa çıxış imkanlarının məhdud olması bu məsələnin əsas səbəbidir: "Qiymət artımının digər bir səbəbi isə idxaldan asılılıqdır. Yerli istehsalın lazımi həcmdə olmaması idxaldan asılılığı artırır ki, bunun da nəticəsində qiymətlər artır. Elə bir vəziyyət yaranır ki, idxal olunan məhsulun qiyməti yerli məhsulla müqayisədə heç də yüksək olmur. Bu da yerli istehsalçılara müəyyən problem yaşadır və yerli istehsalın zəifləməsinə səbəb olur. Son nəticədə yerli istehsalın zəifləməsi idxaldan asılılığı artırır. İdxal da elə bir istiqamətdir ki, dünya bazarında hansısa bir təlatümün, problemin olması qiymətin artmasına səbəb olur. İdxaldan asılılıq sözsüz ki, arzuolunan deyil".

Başqa bir iqtisadçı-ekspert Vüqar Qocayev isə "cebhe.info"-ya açıqlamasında bildirib ki, bəzi ərzaq məhsullarının qiyməti süni şəkildə artırılır: "Hazırda qiymət artımının əsas səbəbi insarçılıqdır. İnsarçılığın yaranma səbəbi azad rəqabət mühitinin olmamasıdır".

Ekspert vurğulayıb ki, ən çox qiyməti yüksələn məhsuldan biri də ət və ət məhsullarıdır: "Son bir il ərzində istehlak bazarında quzu və dana ətinin qiyməti rekord həddə artıb. Hər ay ətin qiymətində 50 qəpik və ya 1 manat arasında dəyişiklik olur. Bunun da səbəbi heyvandarlığın yem bazasının azalmasıdır. Məhz Azərbaycanda heyvandarlığın inkişafı üçün zəruri heç bir addım atılmır".

Ekspert qeyd edib ki, gömrük güzəştləri olmasa, ərzaq məhsullarının qiymətləri yenidən artacaq: "Ölkədə bahalaşmanın əsas səbəblərindən biri də gömrükdə vergi güzəştinin aşağı səviyyədə olmasıdır. Sahibkarlar ödənilən vergi məbləğinin yüksək olmasından narazıdır. Hazırda bu sahədə hansısa bir vergi güzəştləri gözlənilmir".

Beləliklə, görünən odur ki, hələ də mövcudluğunu qoruyub saxlayan monopolist meyllər səbəbindən bu Novruz bayramı öncəsində də qiymətlər "od tutub yanacaq". Nəticədə itirən sadə vətəndaşlar, qazananlar, daha doğrusu, "qaz vurub qazan dolduranlar" isə inhisarçılar olacaq...

***Sənan Mirzə***

BANK BTB

# "BTB" bankın depozit otağından 800 min manat pul oğurlandı

***Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahirə Kərimovanın sədrliyi ilə Cinayət Məcəlləsinin 177.4 (Oğurluq, xüsusi külli miqdarda törədildikdə) maddəsi ilə təqsirləndirilən Belarusiya vətəndaşları 1976-cı il təvəllüdlü Babayev Aleksey Ramizoviç və 1990-cı il təvəllüdlü Qrinkeviç Sergey Oleqoviç cinayət işi üzrə məhkəmə baxışı keçirilib.***

"Unikal"ın məlumatına görə, təqsirləndirilən şəxslər "BTB" Bankdan müştərilərin depozit otağındakı seyflərindən 800 min manat nağd pulu oğurlamaqda şübhəli bilindikləri üçün həbs ediliblər.

Zərərçəkmiş Fuad Eldar oğlu Lütfəliyev və Nurlan İlham oğlu Kazımovun anket məlumatları məhkəmə prosesində dəqiqləşdirilib.

Sonra zərərçəkmiş Nurlan Kazımov ifadə verib: "Bankdan mənə zəng gəlmişdi, adıma bankın depozit otağında seyf var, dedilər təmir başlayır banka yaxınlaşardız. Məndə gəldim özümə aid olan əşyalara baxış keçirdim seyfdə. Mən artıq 1 il 6 aydır həmin seyfi icarəyə götürmüşdüm. Sonra dedilər seyflərə müdaxilə olub. Banka gələndə gördüm seyflərə müdaxilə olub. Ancaq mənim seyfimdən heç nə götürülməmişdir. Mən ora işlədiyim şirkətin də sənədlərini, arada pul və digər əşyalarda qoyurdum. Seyfin 1 açarı bankda, 1 açarı isə məndə olurdu. "BTB"də olan bankın depozit otağında çox boşluqlar olub. İttiham aktında yazılıb ki, guya mənim 37 nömrəli seyfimə müdaxilə olub, açıb baxıblar, heç bir dəyərli əşya olmadığına bağlayıblar. Mənim bu şəxslərdən heç bir şikayət və tələbim yoxdur. Ancaq mən cinayətkarla necə barışa bilərəm?"

Təqsirləndirilənlər şəxslər də Nurlan Kazımovun seyfinə müdaxilə etdiklərini etiraf etdilər.

Növbəti zərərçəkən Fuad Lütvəliyev həmin seyflərdən birinin ona məxsus olduğunu, kompaniyaya düşdüyü üçün birinci 6, sonra həmin müdaxilə olan 9 saylı seyfi götürdüm. Mənim heç bir şikayət və tələbim yoxdur, təqsirləndirilən şəxslərə barışıq verirəm. Əslində hər bir bank müştərilərə yüksək təhlükəsizlik, seyfdə saxlanılanlar və sahibi haqda məlumatın tam konfidensiallığına təminat, siqnalizasiya və yanğın əleyhinə sistem ilə təchiz olunmuş otaqlarda seyfllərin 24 saat fasiləsiz peşəkar mühafizəsinə təminat verir.

Qeyd edək ki, hadisə ötən il martın 17-si saat 18:00 radələrində paytaxtın Xətai rayonu, Y.Səfərov küçəsi 21 saylı ünvanda yerləşən ofisində qeydə alınıb.

Məhkəmə prosesi 18 aprel tarixinə kimi təxirə salınıb.

***Azər İsrafilov***

# Kağız formada təqdim edilən ödəniş sənədləri dövriyyədən çıxır



***2023-cü ildə Azərbaycanda internet bankçılıq vasitəsilə aparılan əməliyyatların həcmi 2022-ci illə müqayisədə 12 faiz, mobil bankçılıq vasitəsilə aparılan əməliyyatların həcmi isə iki dəfə artıb.***

"Unikal"ın məlumatına görə, bunu AMB-nin baş direktoru Fərid Osmanov deyib.

Onun sözlərinə görə, son vaxtlar maliyyə sektoru getdikcə rəqəmsal xarakter alıb, bunu cari hesab əməliyyatlarında dəyişikliklər sübut edir.

"Kağız formada təqdim edilən ödəniş sənədlərinin sayı xeyli azalaraq öz yerini elektron əməliyyatlara verib. Bu gün elektron ödənişlərin payı 80 faizdən çoxdur ki, bu da ödəniş sistemlərində genişmiqyaslı rəqəmsal transformasiyadan xəbər verir", - deyə Osmanov vurğulayıb.

AMB-nin baş direktoru qeyd edib ki, banklar və maliyyə institutları günün istənilən vaxtında və dünyanın istənilən yerindən yüksək səviyyəli təhlükəsizliyi və xidmətlərin əlçatanlığını təmin edərək, maliyyənin onlayn idarə olunması üçün getdikcə daha rahat və intuitiv həllər təklif edirlər.

10_27 IYUI-QARA.qxd 3/14/2024 9:53 PM Page 9



# Prokurorluq bələdiyyə torpağını icarəyə götürmək istəyənlərə müraciət etdi



***Baş Prokurorluq bələdiyyə torpağını mülkiyyətə və icarəyə götürmək istəyən vətəndaşlara müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir: "Bələdiyyə torpaqlarından hər hansı bir hüquqda (mülkiyyət, istifadə və icarə) torpaq sahəsinin ayrılması üçün hüquqi və fiziki şəxslər ərizə ilə müvafiq bələdiyyəyə müraciət edirlər. Bələdiyyələr torpaq sahəsi əldə etmək istəyən hüquqi və fiziki şəxslərin ərizələrinə 15 gün müddətində baxırlar. Bələdiyyə torpaq sahəsinin ayrılmasının mümkünlüyünü dəqiqləşdirmək məqsədi ilə müraciətdə göstərilənlərə, ərazinin yerquruluşu-təsərrüfat planına, yaşayış məntəqəsinin baş planına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə baxır, hüquqi və fiziki şəxslərin iştirakı ilə ayrılması nəzərdə tutulan torpaq sahəsinə yerində baxış keçirir.

Aşağıda qeyd olunan hallarda bələdiyyə hərrac və ya müsabiqənin keçirilməsi məqsədilə torpaq sahəsi üzərində bələdiyyənin mülkiyyət hüququnun qeydiyyata alınma proseduruna başlanmasının və ya müraciət edən hüquqi və fiziki şəxsə torpaq sahəsinin ayrılmasının məqsədəuyğunluğu barədə qərar qəbul edir:

1) Ayrılması nəzərdə tutulan torpaq sahəsinin məqsədli təyinatı həmin ərazinin yerquruluşu-təsərrüfat planına, yaşayış məntəqəsinin baş planına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə uyğun olarsa;

2) həmin yer başqa hüquqi və fiziki şəxsin mülkiyyətinə, istifadəsinə və ya icarəsinə verilməmişdirsə;

3) elektrik, rabitə, nəqliyyat, qaz, su, kanalizasiya və digər kommunikasiya xətlərinin mühafizə zolağında və sürüşmə zonasında yerləşməmişdirsə.

Bələdiyyə imtinanın səbəblərini göstərməklə müraciət etmiş şəxsə əsaslandırılmış cavab verir. Nəzərə almaq lazımdır ki, Vətəndaşların müraciətləri haqqında qanunun 1.1-ci maddəsinə əsasən (//e-qanun.az/framework/31281) Azərbaycan Respublikası vətəndaşlarının bələdiyyə orqanlarına, bələdiyyəyə məxsus olan hüquqi şəxslərə və ya onların vəzifəli şəxslərinə şəxsən və ya nümayəndə vasitəsilə yazılı və ya şifahi formada, fərdi və ya kollektiv şəkildə müraciət etmək hüququ vardır. Bu qanunun 6-cı maddəsinin tələblərinə uyğun olaraq verilən müraciətin qəbul edilməməsi inzibati xəta hesab olunur və buna görə İnzibati Xətalar Məcəlləsinin 594-1.1.1-ci maddəsinə əsasən vəzifəli şəxslərə xəbərdarlıq edilir və ya onlar 100 manat məbləğində, hüquqi şəxslər 200 manat məbləğində cərimə edilir".

# "Qlobal Bakı Forumu qlobal çağırışları müzakirə etmək imkanı verir"

***"Qlobal Bakı Forumu qlobal çağırışları və onlara necə cavab verə biləcəyimizi müzakirə etmək imkanı verir".***

Bunu Robert Kennedi İnsan Haqları mərkəzinin prezidenti Kerri Kennedi XI Qlobal Bakı Forumu çərçivəsində keçirilən panel müzakirəsində deyib.

"Bu forum zamanı cari qlobal problemlərin həlli yollarının modelləşdirilməsi vacibdir", - o vurğulayıb.



# Hüseynbala Mirələmovun zəif romanları, güclü biznesi...

## Sabiqlərin izi ilə: qalmaqalları ilə məşhur olan keçmiş deputat və biznesmen indi haralardadır, nə işlə məşğuldur?

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Milli Məclisin sabiq üzvü Hüseynbala Mirələmovdur.***

Hazırda 79 yaşında olan Mirələmov əslində fəaliyyətə bədii yaradıcılıqla başlayıb. Hələ 7-ci sinifdə oxuyarkən, 1961-ci ildə "Bir tikə çörək" hekayəsini qələmə alıb, ilk hekayələr kitabı - "Tənha durna uçuşu" isə 1986-cı ildə işıq üzü görüb. 30-dan artıq bədii və publisistik kitabın müəllifi olduğu deyilən Mirələmovun adı xüsusilə son 20 ildə bir qayda olaraq qalmaqallı xəbərlərdə hallanıb.



1992-ci ildən biznes fəaliyyətinə başlasa da, Hüseynbala müəllim 1998-ci ildə Azərbaycan Qaz Emalı Zavodunun direktoru təyin edildikdən qısa müddət sonra sürətlə varlanıb və faktiki şəkildə oliqarxa çevrilib. 2000-ci illərin ortalarından etibarən onun çox sayda biznes obyektlərinin olduğu ortaya çıxıb. Bir sıra media orqanlarında isə Mirələmovla bağlı tərifli məqalələr yazmaq üçün sözün həqiqi mənasında yarış başlayıb. Onun qələmindən çıxan hər bədii mətn, əsərləri əsasında hazırlanan hər tamaşa barədə mədhiyyələr düzmək bir çoxları üçün asan qazanc mənbəyinə çevrilib. Xüsusilə 2005-ci ildə 33 saylı Xətai birinci seçki dairəsindən III çağırış Milli Məclisə deputat seçildikdən sonra bu cür təriflər, mədhiyyələr adət halını alıb. Yeri gəlmişkən sabiq deputat və biznesmen 2010 və 2015-ci illərdə də eyni dairədən mandat qazanmağı bacarıb.

Üç il öncə - 2021-ci ildə Mirələmov sosial şəbəkələrdə yayılmış qeyri-etik görüntüləri səbəbindən gündəmə gəlib. Bu hadisədən sonra o, Yeni Azərbaycan Partiyasının (YAP) Xətai rayon təşkilatının sədri vəzifəsindən azad olunub, eyni zamanda hakim partiyanın Veteranlar Şurası üzvlüyündən də kənarlaşdırılıb. Bunlar azmış kimi o, YAP sıralarından da xaric edilib. Ardınca isə Mirələmov əlindəovcunda qalan son vəzifəsini də itirib: elə həmin ilin aprelində Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Qaz Neft Mühəndisliyi fakültəsinin "Neftin, qazın nəqli və saxlanması" kafedrasının müdiri vəzifəsindən uzaqlaşdırılıb.

Hüseynbala müəllimin kölgəyə çəkilməsi ilə onun haqqında təriflər, mədhiyyələr də səngiyib. Necə deyərlər, "bağda ərik var idi, salam-əleyk var idi, bağda ərik qurtardı, salam-əleyk də qurtardı". Hətta iş o yerə çatdı ki, "Ədəbiyyat qəzeti"nin şöbə müdiri Sərvaz Hüseynoğlu açıqlama verərək Mirələmovun imzası ilə çap olunan "Ənvər Paşa" romanının əsl müəllifinin özü olduğunu bildirib. Hüseynoğlunun sözlərindən belə çıxırdı ki, romanı pul müqabilində yazıb, ancaq Hüseynbala müəllim vəd verdiyi məbləğin bir hissəsini ödəməyib. Sabiq deputatın ona cavabı isə gecikmədi, qarşı tərəfi yalan danışmaqda suçlayaraq onun pul hərisi olduğunu dedi. Həmin vaxt işin məhkəməyədək uzanacağı söylənilsə də sonradan məsələ nədənsə unuduldu...

Lakin Mirələmovla bağlı əsas qalmaqallar onun biznes fəaliyyəti ilə bağlıdır. Məsələn, onun sabiq mədəniyyət naziri Əbülfəs Qarayevlə şərikli şəkildə ofşor zonada, Panamada şirkət yaratması ortaya çıxmış və geniş əks-səda doğurmuşdu. O da aydınlaşmışdı ki, RİMBA S.A. adlı həmin şirkətin Azərbaycanda filialı da var.

3 il öncə isə Mirələmovun həmin vaxt Xarici İşlər Nazirliyində çalışan oğlu Rauf Mirələmov barədə polis orqanlarına şikayət edilməsilə bağlı xəbərlər yayılıb. Onun "1001 gecə" restoranının yaxınlığında qanunsuz tikinti işləri aparması ilə bağlı məlumatı İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti təsdiqləmişdi. Bildirilib ki, məsələ ilə əlaqədar ərazidə monitorinq aparılıb, akt tərtib olunub və tədbir görülməsi üçün Daxili İşlər Nazirliyinə müraciət edilib. Daha əvvəl isə Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən ərazidə araşdırma aparıldıqdan sonra qeyri-qanuni olduğu müəyyənləşən tikinti işləri ilə bağlı Rauf Mirələmova xəbərdarlıq edilməsinə baxmayaraq qarşı tərəfin buna məhəl qoymadığı qeyd olunub. Bununla əlaqədar Əmlak Məsələləri Dövlət Xidməti polisə müraciət ünvanlayıb.

Hazırda Mirələmov təqaüdçü eks-deputat kimi yüksək pensiya ilə (təxminən 5 min manat) təmin olunur. Bundan başqa, o, biznes sahəsində fəaliyyətini davam etdirir. Deyilənlərə görə, sabiq deputatı mütəmadi şəkildə özünə məxsus "1001 gecə" adlanan və Şıxovda, dəniz sahilində yerləşən istirahət mərkəzində görmək mümkündür.

Eyni zamanda eks-deputat bədii yaradıcılıqla da məşğuldur. Ötən il, sosial şəbəkələrdə qeyri-etik görüntülərinin yayılmasından cəmi 2 il sonra atəşli eşq romanı ("Bəyaz buludlar üstdə") yazan Mirələmovun bir müddətdir üzərində işlədiyi Behbud xan Cavanşir haqqında tarixi romanını da çapa verməyə hazırlaşdığı deyilir (xatırladaq ki, Behbud xan Azərbaycan Cümhuriyyətində başda daxili İşlər naziri olmaqla bir çox yüksək postlar tutub və İstanbulda ermənilər tərəfindən sui-qəsd nəticəsində öldürülüb).

Hərçənd, bədii mətnləri obyektiv tənqidçilər və hazırlıqlı oxucular tərəfindən çox zəif əsərlər kimi qiymətləndirilən Hüseynbala müəllimin gələcəkdə adının yazıçıdan çox qalmaqallı eks-deputat və biznesmen kimi xatırlanacağı ehtimalı daha yüksək görünür...

***Sənan Mirzə***

# Arif Rəhimovla bağlı 400 min manat müəmması...

## Mərhum nazirin oğlu "Formula 1"ə ayrılan pulların mənimsənilməsindən xəbərsiz olub?

***Yola salmaq üzrə olduğumuz həftə yayılan xəbərə görə, 2015-2020-ci illərdə Bakı Şəhər Halqası Əməliyyat şirkətinin İdman Əməliyyatları şöbəsinin rəisi işləmiş Çingiz Mehdiyev cinayət məsuliyyətinə cəlb edilib.Məlumatda iddia edilib ki, Ç.Mehdiyev külli miqdarda dövlət vəsaitini mənimsəməkdə və həmin pulları qanunsuz leqallaşdırmaqda ittiham edilir.***



Cinayətin üstü Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılan araşdırma nəticəsində açılıb.Mehdiyevə verilmiş ittiham ondan ibarətdir ki, o, Formula 1 yarışları ərəfəsində marşallar üçün geyim, ləvazimat, yağçəkən parçalar və digər əşyaları sifariş verərkən malların qiymətini süni şəkildə artırıb. Həmçinin dövlət büdcəsindən ayrılmış pulları öz yaxın adamlarının adına olan şirkətlərə köçürüb. Qiymət şişirtməsi nəticəsində əldə edilmiş pullar isə qəsdən mənimsənilib.

Həmçinin o, özünə etibar edilmiş külli miqdarda vəsaiti talamaq niyyəti ilə ofşor zonada - Seyşel adalarında cinayətdən xəbərsiz anasının adına yaratdığı şirkəti Formula 1 yarışlarının keçirilməsi üçün ixtisaslaşmış təşkilat kimi təqdim edərək müqavilə bağlatdırıb.

İstintaqla Ç.Mehdiyevin ümumilikdə 397 min 852 manat dövlət vəsaitini mənimsədiyi üzə çıxıb. Bundan əlavə o, əldə etdiyi pulların həqiqi mənbəyini gizlətmək məqsədilə külli miqdarda pul vəsaitlərini xarici banklara köçürərək leqallaşdırıb.

Qeyd olunan əməllərə görə, Ç.Mehdiyevə Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 12.1, 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma) 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü ( vəzifə saxtakarlığı) maddələri ilə ittiham verilib. Həmçinin 1 milyon manata yaxın qiymətləndirilən əmlakları üzərinə həbs qoyulub.

İstintaq dövründə Ç.Mehdiyev mənimsədiyi məbləğin 100 min manatını dövlət büdcəsinə geri ödəyib.

Təqsirləndirilən şəxs həbsdə deyil. Onun haqda istintaq dövrü müddətində "polisin nəzarəti altına vermə" qətimkan tədbiri seçilib.

Xatırladaq ki, Ç.Mehdiyev Bakı Şəhər Halqası Əməliyyat şirkətinin İdman Əməliyyatları şöbəsinin rəisi işlədiyi dövrdə (2015-2020) sözügedən şirkətə Arif Rəhimov rəhbərlik edib. O, sabiq gənclər və idman naziri, mərhum Azad Rəhimovun oğludur.

A.Rəhimov 7 il Bakı Şəhər Halqasının icraçı direktoru olub.Mərhum nazirin oğlu 2022-ci ildə bu vəzifədən azad edilib və həmin vaxt bildirilib ki, bundan sonra fəaliyyətini özəl sektorda davam etdirəcək. Yeri gəlmişkən bildirək ki, o, Azad Rəhimovun yeganə övladıdır. Orta məktəbi Bakıda bitirən, daha sonra Azərbaycan Dövlət İqtisad Universitetində oxuyan Arif Rəhimov ardından ali təhsilini İngiltərənin paytaxtında davam etdirib. Azərbaycan, rus və ingilis dillərini bilən Arif Rəhimov 2011-2012-ci illərdə Londondakı Cass Business School-da neft və energetika sənayesi ixtisasına yiyələnib.

2009-cu ilin oktyabrından 2011-ci ilin noyabrınadək Azərbaycan Dövlət Neft Şirkətində maliyyə meneceri vəzifəsində işləmiş Arif Rəhimov sonradan DDLAR GROUP adlı özəl şirkətini qurub və ona rəhbərlik edir.

Bəzi KİV-lərin iddiasına görə, mərhum nazirin oğlu, əsasən, Londonda yaşayır.

Başqa bir iddiaya görə isə Çingiz Mehdiyevin cinayət məsuliyyətinə cəlb edildiyi 400 min manatlıq yeyinti faktından Arif Rəhimovun xəbərsiz olması təəccüblüdür. Hər halda söhbət kifayət qədər böyük məbləğdə - yarım milyon manata yaxın bir mənimsəmədən gedir.

O da istisna edilmir ki, mərhum nazirin oğlu bu yeyinti ilə bağlı şübhələrin ortaya çıxmasının ardından Bakı Şəhər Halqasının icraçı direktoru vəzifəsini itirib.

Xatırladaq ki, mərhum Azad Rəhimov 2006-2021-ci illərdə gənclər və idman naziri postunu tutub. O, 2021-ci ilin yanvarından ağciyər xərçəngindən və qaraciyər serrozundan müalicə almağa başlayıb. 30 aprel 2021-ci ildə Bakı vaxtı ilə saat 22:45-də ABŞ-nin Nyu-York şəhərində müalicə aldığı xəstəxanaların birində dünyasını dəyişən mərhum nazir 2 may 2021-ci ildə Bakıda, İkinci Fəxri Xiyabanda dəfn olunub.

Onu da deyək ki, mərhum nazirin oğlu Arif Rəhimov Bakı Şəhər Halqasının icraçı direktoru vəzifəsindən azad edildikdən sonra onun yerinə Maqsud Fərzullayev təyin edilib. M.Fərzullayev həmin təyinatadək Milli Gimnastika Arenasında icraçı direktor vəzifəsində çalışıb. Avropa Oyunları, İslam Oyunları və Formula 1 Qran-prisində təşkilat komitəsinin tərkibində yer alıb.

***Toğrul Əliyev***

# Azərbaycanda dərmanlar ucuzlaşacaq - Komitə sədri



***""Dərman vasitələri haqqında" qanuna edilən dəyişikliklərdən sonra ölkəmizdə dərman istehsalı sənayesinin yaradılmasının şahidi olduq. Artıq bir neçə dərman istehsalı müəssisəsi istifadəyə verilib, bir neçəsinin isə yaxın vaxtlarda istifadəyə verilməsi gözlənilir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib. Komitə sədri dərman istehsalı müəssisələrinin yaradılmasında təkcə azərbaycanlı sahibkarların iştirak etmədiyini, həmçinin bu işə dünyada tanınmış şirkətlərin də cəlb olunduğunu vurğulayıb.

Belə müəssisələrin istifadəyə verilməsi keyfiyyətli dərman istehsalına, xaricdən ölkəyə gətirilən dərmanların sayının azalmasına gətirib çıxaracaq. Ə.Əmiraslanov əlavə edib ki, eyni zamanda, bu hal yaxın vaxtlarda dərmanların qiymətinin aşağı düşməsinə də səbəb olacaq.

# Yol polisindən dumanlı hava ilə bağlı xəbərdarlıq

***DİN-in Baş Dövlət Yol Polisi İdarəsi dumanlı hava şəraiti ilə bağlı sürücülərə müraciət edib.***

BDYPİ-dən "Unikal"a verilən məlumata görə, müraciətdə deyilir: "Milli Hidrometeorologiya Xidmətinin məlumata əsasən, xüsusilə gecə və səhər saatlarında dumanlı hava şəraiti ilə əlaqədar olaraq magistral avtomobil yollarında görünüş məsafəsinin 500-1000 metrədək məhdudlaşacağı gözlənilir, bu da sürücülər üçün bir sıra çətinliklər yarada bilər.

Qatı duman digər hərəkət iştirakçılarının, habelə nizamlama vasitələrinin vaxtında və aydın görünməsinə ciddi maneə yaratdığı üçün sürücülərdən belə havalarda daha diqqətli olmaq, sürət həddini hava şəraitinə uyğun seçmək, daha çox ara məsafəsi saxlamaq, nəqliyyat vasitələrinin, xüsusilə xarici işıq cihazlarının sazlığına əmin olmaq, dayanma, durma, parklanma, eləcə də ötmə və manevr zamanı təhlükəsizlik qaydalarına ciddi əməl etmək tələb olunur".

# Rəşad Nəbiyev Şəmkirdə vətəndaşları qəbul etdi

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev 14 martda Şəmkir şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.***

"Unikal" xəbər verir ki, görüşdən əvvəl nazir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl, Samux rayonları və Gəncə şəhəri sakinlərinin qəbulu zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb.

Müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verilib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal müsbət həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilir.

# "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının tikintisi yekunlaşır

***Araz çayı üzərində inşa olunan "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının tikinti işləri 96% yekunlaşıb.***

"Unikal" xəbər verir ki, bu barədə energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib.

"Araz çayı üzərində inşa olunan "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarına baş çəkdik. "Xudafərin" və "Qız qalası" hidroqovşaqları və su elektrik stansiyalarının tikintisi layihəsi üzrə görülən işlərin gedişi ilə tanış olduq, cari vəziyyəti dəyərləndirdik. Hər iki hidroqovşaq üzrə işlərin 96%-i yekunlaşıb", - paylaşımda qeyd olunur.

# Qusar rayonu üzrə əsas demoqrafik göstəricilər haqqında statistika

***01 yanvar 2024-cü il tarixinə Qusar rayonunun əhalisinin sayı 0,6 min nəfər və yaxud 0,6 faiz artaraq 102,3 min nəfər olmuşdur. Hazırda rayonda əhalinin sıxlığı bir kvadrat kilometrə 68 nəfər təşkil edir. Əhalinin 23,2 faizi (23,7 min nəfər) şəhər, 76,8 faizi (78,6 min nəfər) kənd yerlərində yaşayır.***

Rayon əhalisinin 50,7 faizini (51,9 min nəfər) kişilər, 49,3 faizini (50,4 min nəfər) qadınlar təşkil edir və hər 1000 kişiyə 971 nəfər qadın düşür.

2023-cü il ərzində rayonda 1140 körpə doğulmuşdur ki, onların da 587 nəfərini (51,5 faizi) oğlanlar, 553 nəfərini (48,5 faiz) qızlar təşkil edir. 2022-ci illə müqayisədə doğulanların sayında 179 doğum halı və yaxud da 13,6% azalma olmuşdur.

2023-cü ildə rayonda 563 ölüm halı qeydə alınmışdır ki, bu da keçən illə müqayisədə 11 ölüm halı və ya 1,8 faiz azalma olmuşdur. Hesabat ilində 13 nəfər 1 yaşa qədər körpə vəfat etmişdir, onlardan 9-u oğlan, 4 nəfəri qızdır. Respublika miqyasında olduğu kimi, Qusar rayonunda da ölüm hallarına əsasən qan dövranı sisteminin xəstəlikləri, yenitörəmələr, həzm sisteminin, tənəffüs orqanlarının xəstəlikləri səbəb olur.

Ötən il rayonda 480 nikah və 166 boşanma halları qeydə alınmışdır. Nikah və boşanmaların sayında əvvəlki illə müqayisədə müvafiq olaraq 5,7 faiz azalma və 22,1 faiz çoxalma qeydə alınmışdır. Gənc ailələr tərəfindən ailə münasibətlərinə və ailə məfhumuna ciddi yanaşılmamasının nəticəsidir ki, rayonda boşanma halları yüksək olaraq qalır.

2023-ci il ərzində Dövlət Miqrasiya Xidmətinin və Daxili İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən Qusar rayonuna daimi yaşamaq üçün 96 nəfər gələn (ondan 25 nəfər şəhər və 71 nəfəri isə kənd yerlərinə) və 24 nəfər rayondan gedən (ondan 16 nəfər şəhərdən, 8 nəfəri isə kənddən) qeydə alınmışdır. Beləliklə, rayonda keçən il ümumi artım 649 nəfər olmaqla əhalinin sayı 102336 nəfər olmuşdur.

Rayon əhalisinin əksəriyyəti ləzgilərdən ibarətdir. 2019-cu il əhalinin siyahıyaalınmasına görə ləzgilər rayon əhalisinin 86,4%-ni, azərbaycanlılar isə 13,2%-ni təşkil edir.

Aşağıdakı cədvəldə 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınması üzrə rayon əhalisinin milli tərkibi daha aydın əks olunmuşdur:

**(2019-cu il əhalinin siyahıyaalınması üzrə, nəfər)**

| Milli tərkib | Cəmi | | kişi | | qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| Əhalinin sayı – cəmi | 99508 | 100,0 | 50594 | 100,0 | 48914 | 100,0 |
| o cümlədən: | | | | | | |
| *azərbaycanlılar* | 13105 | 13,2 | 6622 | 13,09 | 6483 | 13,25 |
| *ləzgilər* | 86021 | 86,4 | 43833 | 86,64 | 42188 | 86,25 |
| *türklər* | 70 | 0,1 | 33 | 0,07 | 37 | 0,08 |
| *ruslar* | 101 | 0,1 | 23 | 0,04 | 78 | 0,16 |
| *digər millətlər* | 211 | 0,2 | 83 | 0,16 | 128 | 0,26 |

***Qusar Rayon Statistika İdarəsi (12.03.2024-cü il)***

# Məşhur şirkət borclularla bağlı məhkəməyə üz tutdu




***"Azerbaijan Coca-Cola Bottlers" MMC bir neçə şirkət və şəxsi alqı-satqı müqavilələri ilə bağlı öhdəlikləri yerinə yetirmədiyi üçün Bakı Kommersiya Məhkəməsinə müraciət edib.***

"Unikal"ın məlumatına görə, məhkəmə proseslərinə müxtəlif hakimlər sədrlik edəcək.

"Coca-Cola" şirkətinin şikayəti ilə bağlı cavabdeh qismində tanınan şirkətlər-"İSSİ" MMC, "Middle Vvay Hotel Qrup" MMC və adları çəkilən şəxslərdi-Vaqif Qulam oğlu Əsədov, Ülviyyə Rasim qızı Yusifli, Eldəniz Gülməmməd oğlu Məmmədov, Elmir Rəhman oğlu Abdullayev, Niyaməddin Tapdıq oğlu Hüseynov, Asim Akif oğlu Abasov və xarici vətəndaş olan Can Harun Resıtdı.

# Ziyəddin Əliyev biznesinin bir hissəsini itirir

## Sabiq icra başçısının şirkətləri əl dəyişdirməyə başlayıb

***Vəzifədə olduğu müddətdə bir çox qalmaqallarla yadda qalan Quba Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Ziyəddin Əliyevlə bağlı sosial şəbəkələrdə maraqlı məlumat paylaşılıb.***

Həmin məlumatlarda iddia olunub ki, sabiq icra başçısının nəzarətindəki şirkətlərdən biri onun əlindən alınıb.

Notarial qaydada təhvil-təslimin bu yaxınlarda, daha dəqiq desək, martın 6-da həyata keçirildiyi də açıqlanıb. Sosial şəbəkələrdə paylaşılan bu məlumat daha sonra müxtəlif KİV-lərdə də yer alıb. Lakin sözügedən iddiada adı hallanan Ziyəddin Əliyev bu xəbərə indiyədək hər hansı reaksiya verməyib. O, deyilənləri nə təsdiq, nə də təkzib edib.



Xatırladaq ki, hazırda 61 yaşı olan Z.Əliyev 2017-2023-cü illərdə Quba Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini tutub. İcra başçısı olmamışdan əvvəl isə yol-nəqliyyat infrastrukturunda çalışıb.

Qubaya rəhbərlik etdiyi dövrdə sabiq başçının biznesi barədə ölkə mediasında çoxsaylı iddialar irəli sürülüb. Onun ölkə daxilində və xaricində bir çox şirkətlər yaratdığı bildirilib. Məsələn, sabiq başçının hələ "Bakı Yol Tikinti-1" ATSC-nin direktoru olarkən, yəni 2008-ci ilin yanvarın 18-də Çexiyada şirkət açdığı yazılıb. "İlkin nizamnamə kapitalı 200 min kron olan "Az Servis-NR s.r.o." adlı şirkətinin qeydiyyat sənədində təsisçinin 27 iyun 1963-cü il təvəllüdlü, Bakı şəhəri, Ə.Kürçaylı 7/45 ünvanında pasport qeydiyyatında olan Ziyəddin Əliyev olduğu göstərilib. Şirkətin adında "NR" sonluğu Ziyəddin Əliyevin oğlanlarının adlarının baş hərfləridir" deyə bildirilib.

O da iddia edilib ki, Ziyəddin Əliyev Avropada biznesini Çexiya ilə məhdudlaşdırmayıb. Belə ki, 22 iyul 2017-ci il tarixdə, yəni icra başçısı təyinatından bir neçə ay əvvəl o, Avstriyanın paytaxtı Vyanada daha bir şirkət qeydiyyatdan keçirib. "S.M.A.N Business Solutions GmbH" adlı bu şirkət Vyana ədliyyəsində 30 min avro nizamnamə kapitalı ilə FN 457017 i saylı lisenziya alıb. Nizamnamə üzrə fəaliyyət dairəsi daşınmaz əmlak, tikinti, ticarət sahələrini əhatə edir. "Şirkətin hissələrinin 51 faizi Ziyəddin Əliyevin Çexiyada sahibi olduğu "Az Servis-NR s.r.o." şirkətinə, 49 faizi isə Sübhan Məmmədli adlı şəxsə məxsus olub" deyə media yazıb.

Sabiq icra başçısının ailə biznesinə daxil olan başqa bir şirkət isə bir neçə il öncə Kenan Koç adlı şəxslə Avstriyanın paytaxtı Vyanada təsis olunub. Z.Əliyevin oğlunun K.Koçla birgə yaratdığı "Kena Gastro GmbH-ni"nin qastronomiya sahəsində xidmət lisenziyası aldığı, 2019-cu il fevralın 22-də Vyana, Johannesgasse 14/1 ünvanında hüquqi qeydiyyatdan keçdiyi bildirilib. İddialara görə, sabiq icra başçısının oğlu ilə 75/25 nisbətində ortaqlığa başlayan Kenan Koç Vyanada daha bir necə şirkət təsis edərək restoranlar şəbəkəsi qurub. Kenan Koç qısa müddət ərzində Vyanada 3 fərqli ünvanda brendə çevrilən Kenny's restoranlarının, "Space Burger", "Pandemic Kitchen"in və "Empire" gecə klubunun meneceri kimi məşhurlaşıb.

Z.Əliyevlə bağlı başqa bir iddiada isə onun Ukraynada da şirkətlərinin varlığından bəhs edilib. Deyilənlərə inansaq, bunlardan ən məşhuru Lvov vilayətinin Nikolayevsk şəhərində benefisiarı olduğu və 7 milyon avroya başa gələn "ALOV" asfalt zavodudur.

Sabiq icra başçısının 6 il rəhbərlik etdiyi Qubada da biznes obyektinin və daşınmaz əmlaklarının varlığı ilə bağlı xəbərlər dolaşır.Bu sırada Qubanın Vladimrovka kəndində "Fayton" restoranı (istirahət kompleksi 1.5 ha ərazidə), Quba şəhəri, Qəçyəş yolu yaşayış massivində 2 ədəd villa, Quba-Qonaqkənd yolu, Təngəaltıda dağ yamacında otel və restoran kompleksi, Quba rayon Nügədi kənd ərazi dairəsində çınqıl karxanası, asfalt zavodu və beton zavodu, Qubanın İqrıq kəndi ərazisində, Quba-Bakı yolu üzərində yanacaqdoldurma məntəqəsi, Quba şəhərinin 28 May parkında restoran əyləncə kompleksi, açıq mini futbol meydançası və gözəllik salonu, Quba şəhərinin girişində "ASAN Xidmət"lə üz-üzə iki çoxmərtəbəli binanın birinci mərtəbəsində obyektlər, Quba şəhəri, Ə.Nərimanov küçəsində yarımçıq tikili çoxmərtəbəli bina göstərilir.

İndiyədək mətbuatda dərc olunmuş bu iddialara, məlumatlara qarşı tərəf heç bir reaksiya bildirməyib. Ona görə də deyilənlərdə həqiqət payının nə qədər olduğu qaranlıq qalıb. Buna baxmayaraq, xüsusilə xaricdəki şirkətlərlə bağlı sənədlərdə onun övladlarının adlarına rast gəlinməsi Z.Əliyevin iri biznesə sahib olduğunu söyləmək üçün əsas verir.

Bir neçə gün əvvəl sabiq başçının nəzarətindəki şirkətin "əl dəyişdirməsi" barədə ortaya atılan və yalanlanmayan iddia isə yeni təxminlərin ortaya çıxması ilə nəticələnib. Belə fikirlər dolaşır ki, ötən ilin yayından işsiz qalan sabiq başçı öz biznesinin bir hissəsini artıq itirməyə başlayıb.

***Sənan Mirzə***

## 5.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Cəmiyyətin güzgüsü sayılan televiziyalarda fikir, söz azadlığı

### Qulu Məhərrəmli: “Televiziyalar ciddi tədbir görməli, keyfiyyətli estetik zövq aşılayan verilişlər hazırlamalıdırlar ki, ictimaiyyət də telekanallardan narazı qalmasın”

***Televiziyalar cəmiyyətin güzgüsüdür. Efir məkanının üzərinə düşən əsas vəzifələr sırasına vətənpərvərliyin, xalqımızın mədəniyyətinin, incəsənətinin lazımi səviyyədə təbliğidir.***

Televiziya kanallarının konsepsiyası, strateji hədəfləri, efir siyasəti ictimai maraqlarla uzlaşdırılmalı, cəmiyyətimizin saflaşması, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə töhfə verməkdir. Amma son vaxtlar efir məkanında daha çox ailə dəyərlərinə, adət ənənələrimizə yad verilişlər yayımlanır. Xəbər verdiyimiz kimi, bu günlərdə ATV, XƏZƏR, ARB və SPACE telekanallarının rəhbərləri Prezident Administrasiyasına dəvət olunublar. Onların iştirakı ilə keçirilən iclasda kanallarda yayımlanan bir sıra şou və sosial verilişlərdəki biabırçı vəziyyətlə bağlı ciddi iradlar səsləndirilib. Bəzi teleradio rəhbərlərinin milli-mənəvi dəyərlərin qorunmasını arxa plana keçirməsi daha çox biznes maraqlarını ictimai, siyasi, sosial maraqlardan yüksəkdə tutması ilə müşahidə olunur. Halbuki televiziyalar təkcə özünün kommersiya maraqlarının ardınca gedib, marketinq problemlərini həll etməməli, həmçinin auditoriyasının, xüsusən də uşaqların və gənclərin mənəvi cəhətdən zəngin formalaşmasında, vətənsevər, insanpərvər olmasında yaxından iştirak etməlidirlər. Televiziyalarda uşaqlar və yeniyetmələr üçün hazırlanan müxtəlif səpkili maarifləndirici verilişlər üstünlük təşkil etməlidir. Təəssüf ki, bu gün əksər yerli telekanallar biznes maraqlarını öndə tutur. Bunun nəticəsidir ki, bu gün teleefirlərdə milli-mənəvi dəyərlərimizə zidd hesab oluna biləcək, uşaqlarımızın və yeniyetmələrimizin tərbiyəsinə mənfi istiqamətdə çox böyük təsir göstərəcək lazımsız verilişlərin sayı artıb. İndi televiziyalarda efirə gedən bir çox verilişlər insanları maarifləndirmək əvəzinə onların əxlaqi-mənəvi tərbiyəsinin pozulmasında böyük rol oynayırlar. Bu, ilk növbədə, bayağı xarakter daşıyan şou-biznes verilişlərinə aiddir. Həmin verilişlər şou-biznes nümayəndələrinin marağına uyğun olsa da, belə efir proqramlarının səviyyəsi, cəmiyyətə nümayiş etdirilən məqamlar kifayət qədər bayağı xarakter daşımaqla yanaşı, insanların, ilk növbədə isə gənc və yeniyetmələrin dünyagörüşünə mənfi təsir göstərir, onların zövqünü korlayır. Bu gün Azərbaycan ictimaiyyətini narahat edən və ən çox müzakirə olunan məsələlərdən biri də aşağı səviyyəli, keyfiyyətsiz əyləncə və şou-biznes xarakterli verilişlərin çəkisinin artmasıdır. Azərbaycanda plüralizm, söz azadlığının kifayət qədər inkişaf etdiyi bir dövrdə özəl telekanalların bundan sui-istifadə edərək vətənpərvərlik ruhunun güclənməsinə, mədəni, intellektual səviyyənin artmasına səbəb olan verilişləri ikinci plana keçirmələri günümüzün ən ağrılı problemlərindən biridir.



Teletənqidçi Qulu Məhərrəmli “Unikal” qəzetinə müsahibəsində bildirib ki, televiziyalar, xüsusilə özəl kanallar siyasətlərini müstəqil müəyyənləşdirirlər. Q. Məhərrəmli bildirib ki, televiziyalar şou proqramlar hazırlayarkən cəmiyyətə hansı mesajı ötürəcəyi üzərində düşünməlidir.

“Bu gün şou proqramların cəmiyyətə ötürdüyü mesaj ictimai narazılıq doğurur. Bu şou proqramlarda ailə məsələləri müzakirə olunur, insanların şəxsiyyəti alçaldılır. Ona görə də düşünürəm ki, PA tərəfindən telekanallara irad bildirilməsi haqlıdır”- Q. Məhərrəmli bildirib.

Teletənqidçi deyir ki, həmin şou proqramlarda əsas problem aparıcıların qeyri etik davranışı, çirklənmiş leksikonudur. Onun sözlərinə görə, bütün bunlar verilişlərin keyfiyyətinə və normal qavranmasına ciddi təsir göstərir: “Ona görə də televiziyalar ciddi tədbir görməli, keyfiyyətli estetik zövq aşılayan verilişlər hazırlamalıdırlar ki, ictimaiyyət də telekanallardan narazı qalmasın”.

Qulu Məhərrəmli deyir ki, fikir, söz və məlumat azadlıqları cəmiyyətin əsas azadlıqları hesab olunur və plüralist cəmiyyətin yetişməsi üçün ən vacib şərt sayılır. Amma mediamızın mühüm komponentlərindən sayılan televiziya və radio vasitələrimiz bu azadlıqlardan öz mənafeləri üçün yararlanmamalıdır. Həmsöhbətimiz deyir ki, televiziya və radio kanallarımızdakı bəzi proqramların aparıcıları peşə həssaslığını reytinqlərdə üstünlüyə yiyələnmək istəklərinə qurban verməməlidirlər. Çünki, media, müəyyən mənada, tərbiyələndirici funksiya daşımalıdır. Yəni, onun maarifləndirici missiyası həm də fərdləri tərbiyə etməlidir. Teletənqidçi deyir ki, media orqanı, telekanal və radio hər hansı məqamı işıqlandırmaqda sərbəstdir. Amma bu zaman peşəkarlıq öndə olmalı, mövzu daha da dolğunlaşdırılmalıdır. Hiss olunmalıdır ki, ona jurnalist yanaşması var.

Qeyd edək ki, “Media haqqında” Qanunda ölkəmizdə audiovizual media sahəsini tənzimləyən orqan kimi Audiovizual Şura müəyyənləşib. 2002-ci ildə yaradılmış Milli Televiziya və Radio Şurasının varisi olan bu qurum fəaliyyətində mövcud sahədə tənzimləməni və qüvvədə olan normativ hüquqi aktlara əməl edilməsinə nəzarəti həyata keçirmək, dövlət siyasətinin formalaşmasında iştirak, bu siyasətin reallaşdırılmasını təmin etmək səlahiyyətinə malikdir. Audiovizual Şura inzibati televiziyalarda xəta əlamətləri aşkar etdikdə “Media haqqında” Qanuna və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görməyə, habelə qanunvericilikdən irəli gələn digər vəzifələri yerinə yetirmək səlahiyyətindədir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Xudafərin-Qubadlı-Laçın yolunun tikintisi davam edir

***Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.***

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) “Unikal”a verilən məlumata görə, Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun uzunluğu 56.4 km təşkil edir.

Sözügedən yolun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər uzunluğu 14 km olan yeni avtomobil yolunun da inşası icra olunur. Yolların ümumi uzunluğu isə 70.4 km-dir.

Xudafərin-Qubadlı-Laçın avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla, 0-46.2 km-lik hissəsi I, 46.2-56.4 km-lik hissəsi isə II texniki dərəcəyə uyğun olaraq inşa olunur.

## "Avroviziya" səsvermasində dəyişiklik




***İsveçin SVT yayım şirkəti 2024-cü ildə Malmödəki ”Avroviziya” Mahnı Müsabiqəsini daha da maraqlı etmək üçün tətbiq ediləcək bir sıra dəyişiklikləri açıqlayıb.***

“Unikal” xəbər verir ki, Eurovision.tv bununla bağlı məlumat yayıb. İlk dəfə olaraq ”Böyük beşlik” ölkələri - Fransa, Almaniya, İtaliya, İspaniya, Böyük Britaniya və müsabiqənin ev sahibi İsveç təmsilçiləri mahnılarını yarımfinal zamanı canlı ifa edəcəklər.

Əvvəlki illərdə yarımfinal zamanı yuxarıda adları çəkilən ölkələrin hər birinin məşqindən yalnız qısa bir fraqment nümayiş etdirilirdi. İndi “Böyük beşlik” və İsveç “Avroviziya” səhnəsinə çıxaraq öz işlərini canlı yayımda tamaşaçılara nümayiş etdirə biləcəklər.

Mayın 7-də ilk yarımfinalda Almaniya, İsveç və Böyük Britaniya təmsilçiləri, mayın 9-da isə ikinci yarımfinalda Fransa, İtaliya və İspaniyadan olan iştirakçılar səhnəyə çıxacaqlar.

Finalda səsvermə qaydaları da dəyişir: indi bu, daha uzun sürəcək, çünki tamaşaçılar “Avroviziya 2024”ün ilk iştirakçısı səhnədə çıxış etdikdən dərhal sonra öz səslərini favoritə verə biləcəklər. Əvvəlki illərdə səsvermə tamaşadan sonra başlayırdı.

Səsvermədə ”Avroviziyanın” iştirakçısı olmayan ölkələrdə olan mahnı müsabiqəsinin pərəstişkarları da iştirak edəcək. Onlara səs vermək üçün 24 saat vaxt veriləcək. Bunlar üçün onlayn səsvermə hər yarımfinal və finalın ikinci məşqi başa çatdıqdan dərhal sonra başlayacaq, canlı yayım başlayana qədər davam edəcək.

Müsabiqənin təşkilatçıları ”Avroviziya 2024” zamanı tətbiq olunacaq daha bir böyük dəyişikliyi də açıqlayıblar: bu, daha sonra açıqlanacaq, eyni zamanda müsabiqənin bəzi aspektləri dəyişməz qalacaq, məsələn, münsiflər heyəti və tamaşaçılar tərəfindən səsvermə.

Hər bir iştirakçı ölkədəki milli münsiflər hələ də yalnız finala səs verəcək (yekun nəticənin demək olar ki, 50%-ni təşkil edir, 50%-dən bir qədər çoxu ictimai səsvermədən gəlir) və hər yarımfinalda ilk 10-luq ictimai səsvermə yolu ilə müəyyən ediləcək. Həmçinin həm yarımfinalda, həm də finalda nəticələrin təqdimatında heç bir dəyişiklik olmayacaq.

Qeyd edək ki, ölkəmizi yarışmada Fahree (Fəxri İsmayıl) və İlkin Dövlətov təmsil edəcək.

10_27 IYUI-QARA.qxd 3/14/2024 9:54 PM Page 13





## Daha bir xəstəxanada yeyinti aşkarlandı, cinayət işi başlandı

***"Ağdaş Rayon Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsində baş verən qanunsuzluqlar barədə daxil olmuş vətəndaş müraciəti əsasında rayon prokurorluğunda araşdırma aparılıb.***

Bu barədə "Unikal"a Ağdaş Rayon Prokurorluğundan məlumat verilib.

Araşdırma zamanı qeyd olunan tibb müəssisəsinin 01.09.2018-ci il tarixdən 01.09.2023-cü il tarixədək maliyyə-təsərrüfat fəaliyyəti yoxlanılarkən PHŞ-nin vəzifəli şəxs(lər)i tərəfindən faktiki olaraq əmək fəaliyyəti yerinə yetirilmədiyi halda əmək haqqı hesablanıb ödənilməsi, təmir işləri ilə əlaqədar nəzərdə tutulandan artıq pul vəsaitlərinin köçürülməsi və digər yollarla xeyli miqdarda pul vəsaitinin mənimsənilməsi və israf edilməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 179.2.2, 179.2.3 və 179.2.4-cü (qulluq mövqeyindən istifadə edilməklə, təkrar və xeyli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə) maddələrilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

## Xankəndidə avtomat, pulemyot, qumbara aşkarlandı



***Xankəndidə polis əməkdaşları ötən gün xeyli sayda silah-sursat aşkarlayıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, polis əməkdaşlarının keçirdikləri tədbirlərlə martın 13-də Xankəndi şəhəri ərazisindən 25 ədəd müxtəlif markalı avtomat silahı, 1 pulemyot, 3 tapança, 1 tüfəng, 11 qumbara, 10 alışdırıcı, 38 patron darağı, 7575 ədəd müxtəlif çaplı patron və digər sursatlar aşkar olunaraq götürülüb.

## Dünyasını dəyişən polislər dəfn edildi

***Martın 13-nə keçən gecə saat 03 radələrində işğaldan azad olunan ərazidə - Xankəndi şəhərində baş vermiş bədbəxt hadisə nəticəsində həlak olan polis əməkdaşları dəfn edilib.***

"Unikal" xəbər verir ki, xidməti silahdan ehtiyatsız davranma nəticəsində açılan 1 atəşdən dünyasını dəyişən, işğaldan azad edilmiş əraziyə ezam olunmuş Yardımlı Rayon Polis Şöbəsinin rəis müavini, polis mayoru 1982-ci il təvəllüdlü Ramiz İsmayılov Sumqayıt şəhərində dəfn edilib. Xatırladaq ki, hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

## Taksi sürücüsü sükan arxasında öldü

***Ötən gecə Binəqədi rayonu Mehdiabad qəsəbəsində taksi sürücüsü qəfil vəfat edib.***

Taksi sifarişi şəbəkəsinə qoşulmuş "Toyota Prius" markalı avtomobilin gənc sürücüsü sükan arxasında olarkən özünü pis hiss edib. O, maşını yol kənarına çəkdikdən sonra vəfat edib.

Hadisə yerinə təcili tibbi yardım briqadası çağırılsada, sürücünün artıq dünyasını dəyişdiyi müəyyən olunub.

# "Mən 143 milyon mənimsəmişəmsə, bu şəxsləri niyə tutublar?" - General

***Müdafiə Nazirliyinin tabeliyində olan Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin sabiq Maliyyə Xidməti rəisi, polkovnik-leytenant Rəşad Məlikzadənin cinayət işi üzrə məhkəmə prosesi davam edib.***

"Unikal"ın məlumatına görə, Bakı Hərbi Məhkəməsində hakim Rafiq Abbasovun sədrliyi ilə keçirilən prosesdə şahid qismində Müdafiə Nazirliyinin Maliyyə Büdcə İdarəsinin sabiq rəisi, hazırda digər cinayət işi üzrə həbsdə olan general-mayor Nizami Məmmədov ifadə verib:

"Rəşad Məlikzadəni tələbəlik illərindən tanıyıram, onunla bizim kəsişən hər hansı bir işimiz ildən bu sistem belə işləyib. Maliyyələşmədə belə bir qayda var- "əsaslı formada xərclənmə yeyinti sayılmır". Təsərrüfat, cari xərclər büdcədə nəzərdə tutulsada təmin olunacaq dərəcədə deyildi. Xüsusi tapşırıqlara gəldikdə isə bunun maliyyə xidmət rəislərinə aidiyyatı yox idi, onları mən verirdim".

Xüsusi tapşırıqlarla bağlı dövlət ittihamçısı Rəşad Məlikzadəyə belə bir sual ünvanladı: "Rəşad Məlikzadə, sizə xüsusi tapşırıqlarla bağlı ayrılan pullar olub?"

Rəşad Məlikzadə- Şəxsi heyətin sayına görə illik smeta ayrılırdı. 20, 30 faiz olan pullar isə xüsusi təyinatlara xərclənirdi. Artıq pullar bizə çatan kimi həmin ifadəsində deyib ki, getdim aldım gətirdim verdim. Sonrakı ifadəsində isə fərqli ifadələr verib. Şəxsən Rəşad Məlikzadəni aldadıb. Aldığını bizə düzgün göstərməyib. Nizami Cabbarovda artıq vəsaitin faizini maliyyələşməyə gətirib vermirdi. Şəxsən mən ancaq müəyyən təftiş və maliyyə şöbəsinin əməkdaşlarını tanımışam. Onlardan başqa heç kimə əlavə tapşırıq verməmişəm, hətta qohumlarım belə olub işləyənlər arasında. Vəkil-Rəşad Məlikzadənin ittiham aktında göstərilib ki, onun əlindən xüsusi tapşırıqlarla bağlı 2 milyon manat pul keçib, bunu təsdiqləyirsiz?

Nizami Məmmədov- Heç bir maliyyəçiyə xüsusi tapşırıq verilməyib. Nəriman Cabbarov, Süleyman Abbasov və Rafael Xələfova xüsusi tapşırıqlar verməmişəm. Mən xüsusi tapşırıqlarla bağlı mənimsədiyim bütün, yəni 12 milyon manat civarında məbləği ibtidai istintaq müddətində ödəmişəm. Yazırlar ki, Nizami Məmmədov 143 milyon manat mənimsəyib. Əgər elədirsə o zaman bu insanları niyə tutublar? İttiham aktında yazırlar ki, Rafael Xələfov misal üçün deyib ki, rəisin xüsusi tapşırığı var, 500 min gətir ver. Ancaq onların çoxundan mənim xəbərim olmayıb.



Vəkil- Rəşad Məlikzadə belə ifadə verib ki, xüsusi tapşırıqlarla bağlı 1 milyon 650 min manat verməmişəm, təsdiq edirsiz?

Nizami Məmmədov- Rəşad Məlikzadəyə gəldikdə isə, mənim qeydlərimdə var ki, ona dediyim şəxslər vasitəsilə 2 dəfə xüsusi tapşırıq verməmişəm, ancaq yenə deyirəm məbləğlər maliyyəçilərə Rafael Xələfov, Nəriman Cabbarov və Süleyman Abbasov tərəfindən şişirdilmiş rəqəmlərlə deyilib. Mən tək Rəşad Məlikzadə ilə bağlı yox, bütün şəxslərlə bağlı ibtidai istintaqa verdiyim ilkin ifadəni təsdiq edirəm.

Prosesin növbəti hissəsi, yəni Rafael Xələfovla, Nəriman Cabbarovun Rəşad Məlikzadə ilə üzləşmə mərhələsi vəkillərin vəsatəti ilə qapalı keçirildi.

Qeyd edək ki, Rəşad Məlikzadə 26 sentyabr 2022-ci il tarixdə DTX tərəfindən saxlanılmış və barəsində Bakı Hərbi məhkəməsi tərəfindən həbs qətimkan tədbiri seçilmişdir.

Rəşad Məlikzadə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur.

R.Məlikzadə 9.369.411,09 manat pul vəsaitini mənimsəməkdə təqsirləndirilir.

mayıb. Mənimsəmə ilə bağlı isə sistem əvvəldən müəyyən olunub. 101 hərbi hissə olub tabeçiliyimizdə, hazırda 172 şəxsin adı keçir cinayət işində. Maliyyələşməni maliyyə xidmət rəisləri həyata keçirirdilər. Bütün hərbi hissələrdə ildə 1 dəfə təftiş olur. Hərbi hissələr gələn il üçün cari ilin noyab ayında smeta tərtib edib Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsi vasitəsilə Maliyyə Nazirliyinə təqdim edirlər. Əlavə ayrılan pullar isə il ərzində ayrılırdı. Yəni əvvəlcədən bu məbləğ bilinmirdi".

Prosesin bu yerində dövlət ittihamçısı Nizami Məmmədova ironiya ilə "Bu maliyyələşmə sistemi Konstitusiya ilə müəyyən olunub?", - sualını verdi.

Nizami Məmmədov isə, "əgər bu sistem Konstitusiya ilə müəyyən olunsaydı məni tutmazdılar" - deyə cavab verib.

Sonra ifadəsini davam etdirən Nizami Məmmədov 1998-ci ildən Maliyyə sistemində işlədiyini bildirib:

"Mən bu sahəyə gəldiyim zamandan qabaqda, yəni 1993-cü fazileri göndərirdik yuxarı. Mənə bütün tapşırıqları Rafael Xələfov verib. Ona kim "bu formada" tapşırıqlar verirdi onu dəqiq deyə bilmərəm. Rafel Xələfov 11 ayın sultanı idi, 12-ci ay biz onu tapa bilmirdik. Nizami Məmmədova gəldikdə isə, onun tərəfindən mənə heç bir xüsusi tapşırıq verilməyib, ümumiyyətlə iş prosesində onunla rastlaşmamışam.

Təqsirləndirilənin cavabından sonra onun hüquqlarını müdafiə edən vəkil Nizami Məmmədova bəzi sullar verib:

Vəkil- Müdafiə Nazirliyində maliyyələşmə həmişə mövcud olub. Sizdən əvvəldə Namiq Poladov olub idarə rəisi, onun vaxtında da belə olub?

Nizami Məmmədov- Mən gəldikdən sonra təftişin faizini 40 faizdən 30 faizə saldım, maliyyələşmənin faizini isə 10 faizdən 20 faizə qaldırdım. Ancaq sistem eyni formada işləməyə başladı. Ancaq Rafael Xələfov, yəni təftiş şöbəsi gedib hərbi hissəni yoxlayırdı, maliyyəçiləri yükləyirdi, bunları mən həbs olunandan sonra bildim. Rafael Xələfov ilkin

***Azər İsrafilov***

10_27 IYUI-QARA.qxd 3/14/2024 9:54 PM Page 14



# Bakıdakı bu küçələrə maşınla giriş qadağan olunacaq - Qərar



***Həftəsonları Xaqani bağının yaxınlığındakı bəzi küçələrə avtomobillərin girişinə 17 mart tarixindən etibarən həftəsonları Xaqani bağının yaxınlığındakı küçələrdə nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq.***

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən "Unikal"a verilən xəbərə görə, paytaxtın Zərifə Əliyeva (Rəsul Rza küçəsi ilə kəsişmədən sonra), Əbdülkərim Əlizadə, Tərlan Əliyarbəyov və Yusif Məmmədəliyev küçələrində nəqliyyat vasitələrinin girişinə məhdudiyyət tətbiq olunacaq və bu ərazilər piyadaların istifadəsinə veriləcək. Bununla bağlı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən layihə hazırlanaraq Nəqliyyatı Əlaqələndirmə Şurasına təqdim edilib. Şura şəhərin mərkəzi küçələrinin həftəsonları piyadalaşdırılması ilə bağlı qərar qəbul edib.

Belə ki, sözügedən küçələrdəki binalarda yaşayan sakinlərin avtomobilləri üçün nömrətanıma sistemi tətbiq edilməklə əraziyə giriş təmin olunacaq. "AzParking" mobil tətbiqində fərdi parklanma talonu olan sakinlər xidmətdən yararlana biləcəklər. Bu şəxslərin avtomobilləri sistem tərəfindən tanınacaq və onlar əraziyə buraxılacaqlar.

Sakinlər üçün nəqliyyat vasitələri ilə əraziyə giriş Neftçilər prospektindən Tərlan Əliyarbəyov, çıxış isə Yusif Məmmədəliyev küçələrindən olacaq. Məhdudiyyət qoyulacaq əraziyə avtomobilləri ilə daxil olmaları üçün ərazidə yaşayan sakinlərə "AzParking" mobil tətbiqi üzərindən müraciət edərək fərdi parklanma talonu almaları tövsiyə olunur.

Qeyd edək ki, nəqliyyat vasitələrinin hərəkətinə məhdudiyyət qoyulacaq küçələrin xüsusi tranzit əhəmiyyəti yoxdur. Bu küçələr, əsasən, parklanma məqsədilə istifadə edilir. Bakı şəhərinin mərkəzi hər zaman sakinlərin və qonaqların ən sıx ziyarət etdikləri məkandır. Həftəsonları isə piyadaların sayı dəfələrlə artır. Ərazidə böyük piyada axınının müşahidə edilməsi burada təhlükəsiz istirahət zonasının yaradılmasını zəruri edib.

# Tarixə yazılan ad - Alxas Yunusov



***Müstəqil həyata qədəm qoyan gündən canına yağı dadanmış Vətənin taleyi Alxas Mirxos oğlu Yunusovu çox düşündürür. Hələ ta uşaqlıq dövründə ali təhsil alıb xalqına təmənnasız xidmət etmək istəyi də var idi.***

Dünyaya gəldiyi Cəlilabad şəhərində yüksək mədəniyyətinə, əxlaqına, bacarığına görə tanınan gənc birinci, yəni 2004-cü ildə ordu sıralarına gedir. Düşdüyü hərbi hissədə bildirir ki, ermənilər günü-gündən azğınlaşır. Vətən öz cəsur oğlanlardan kömək istəyir. Belə bir vaxtda mən də cəbhə bölgəsində olmalıyam.

Belə də olur. Alxas bununla qürur duyur, əlində silah Vətənini göz-bəbəyi kimi qoruyur. Cəbhə xəttində dəfələrlə yağı düşmənlə qarşı-qarşıya gəlir. Şəxsi igidlik, şücaət göstərməklə onları vaxtında susdura bilir. Hərbi hissədə vətənpərvər, qorxmaz bir gənc kimi tanınır, hamının sevimlisinə çevrilir. Həmçinin, təlimlərdə fəallığı və nizam-intizamı əsgər yoldaşlarına nümunə olur. Mərdlik-kişilik məktəbi olan hərbi xidmətini şərəflə yerinə yetirib doğma evinə qayıdır. El-obada Alxasın Vətən üçün yararlı övlad olduğunu bilənlər ali təhsil almağı onа məsləhət görürlər. Alxas Rusiyaya gedir, burada Moskva Dövlət Universitetinə daxil olur. Tələbəlik illərində Alxasın qəlbində erməni dığalardan intiqam, qisas almaq alovu get-gedə güclənir. Elə buna görə də təhsilini uğurla başa vurub sinəsini məqamında Vətənə sipər etmək, eləcə illərlə cəzasızlıqdan azğınlaşan yağı düşmənə yerini göstərmək üçün Azərbaycana qayıdır.

Bəli, hər an işğalçı dığalardan qisas alacağı günü gözləyən Alxas nəhayət ki, 2020-ci ilin 27 sentyabrında istəyinə çatır. Belə ki, 30 il işğal altında olan Qarabağımızın azadlığı uğrunda müharibə başlanan kimi düşmənlə haqq savaşına girir. Azərbaycan Ordusunun giziri iştirak etdiyi gərgin döyüşlərdə rəşadət nümunəsini göstərir, yağıya ciddi itkilər verir. Həmişə öndə olmaqla hər zaman sinəsini irəli verib qartal tək düşmənin üstünə şığıyan Alxas Tərtərdə, Suqovuşanda, Füzulidə gedən ölüm-dirim vuruşlardan dəfələrlə qalib çıxır. Elə Füzulidə ağır müharibədə ömrünün 34-cü ilində şəhidlik zirvəsinə ucalır.

Alxas Yunusov Vətəni, xalqının xoşbəxtliyi naminə öz qısa həyatını şərəflə yaşadı. Məhz buna görə də ölümsüzlüyə qovuşan qəhrəmanın yeri həmişə ürəklər olacaq. Həmçinin döyüş meydanında göstərdiyi şücaəti dövlət tərəfindən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medallarına layiq görülüb.

***Zəfər Orucoğlu, AJB-nin üzvü***

# "SİMA İmza" ilə "Portmanat"da kimliyini 1 dəqiqədə təsdiqlə

***Rəqəmsal Inkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "AzInTelecom" MMC tərəfindən yaradılmış SİMA yeni nəsil rəqəmsal imza tərəfdaş çevrəsini genişləndirməyə davam edir.***




"Unikal" xəbər verir ki, "SİMA İmza" vasitəsilə xidmətlərini rəqəmsallaşdıran növbəti qurum "Portmanat" elektron pulqabı olub. Artıq "Portmanat" elektron pulqabının internet saytında (www.portmanat.az) və mobil tətbiqində istifadəçilər kimliyini "SİMA İmza" vasitəsilə eyniləşdirə bilərlər. Belə ki, saytda və tətbiqdə qeydiyyatdan keçmiş istifadəçilər "Limitlər və imkanlar" bölməsinə daxil olub limit artırılması prosesini "SİMA İmza" sayəsində anında reallaşdıra bilərlər.

Qeyd edək ki, buna qədər müştərilər limit artımı üçün müraciət göndərməli, azı 1 iş günü gözləməli idi. Prosesi səhv icra etdikdə təsdiqlənmə müddəti daha da uzanır, nəticədə eyniləşdirmə əməliyyatı zaman alırdı. "SİMA İmza" sayəsində isə müştərilər 1 dəqiqədən daha az müddətdə kimliyini təsdiqlədə bilirlər.

"SİMA İmza" ilə vətəndaşların xidmət mərkəzlərindən asılılığına son qoyulur, xidmət göstərənlərin iş yükü və xərcləri azalır. Azərbaycan vətəndaşları, fərdi sahibkarlar və Azərbaycanda qanuni əsaslarla yaşayan əcnəbilər olduğu yerdən elektron xidmətlərdən yararlanırlar.

Həmçinin "SİMA İmza"nın istənilən sistemə inteqrasiya oluna bilməsi istifadəçilərə sürətli və istənilən sayda imzalama imkanı qazandırır. Rəqəmsal xidmətlərə əlçatanlığı artıran "SİMA İmza" ölkəmizdə biznes proseslərini sürətləndirəcək.

Mobil tətbiqi yükləməklə əldə olunan "SİMA İmza" (buradan yükləyin) vətəndaşlar üçün tam pulsuzdur. SİMA yeni nəsil rəqəmsal imza ilə bağlı daha ətraflı məlumatı www.sima.az saytından və "157" Zəng Mərkəzi ilə əlaqə saxlayaraq əldə edə bilərsiniz.

# 2023-cü ildə Goranboy rayonunda tikintinin əsas göstəriciləri belə olub

***2023-cü ildə bütün maliyyə mənbələri hesabına 3034,6 min manat dəyərində əsas fondlar istifadəyə verilmişdir. İstifadəyə verilmiş əsas fondların 266,3 min manatı dövlət, 2768,3 min manatı qeyri-dövlət mülkiyyətində olmuşdur. 2023-cü ildə ümumi sahəsi 5094,8 kvadrat metr olan yaşayış evləri tikilib istifadəyə verilmişdir.***

2023-cü ildə rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 32585,8 min manat məbləğində investisiya yönəldilmişdir ki, bu da əvvəlki ildən 13,4 faiz çox olmuşdur.

Əsas kapitala yönəldilmiş investisiyaların 91,5 faizi və ya 29817,5 min manatı dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar tərəfindən, 8,5 faizi və ya 2768,3 min manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar tərəfindən qoyulmuş vəsaitlərin payına düşür.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 32345,0 min manatı tikinti-quraşdırma işlərinə sərf olunmuşdur. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 2022-ci ildən 18,0 faiz çox olmuşdur. Tikinti-quraşdırma işlərinə sərf olunmuş vəsaitlər bütün əsas kapitala yönəldilmiş investisiyaların 99,3 faizini təşkil etmişdir.

2023-cü ildə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər tərəfindən tikinti müəssisələrinin yerinə yetirdikləri işin həcmi 170366,3 min manat və ya əvvəlki ildən 22,7 faiz az olmuşdur. Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş işlərin 98,8 faizi və ya 168269,1 min manatı tikinti, yenidənqurma, genişləndirmə, texniki avadanlıqlar və cihazlarla yenidən təchiz edilməsi, 1,1 faizi və ya 1904,6 min manatı cari təmir, 0,1 faizi və ya 192,6 min manatı isə sair işlərdir.

İlkin məlumatlara əsasən 2023-cü ildə tikinti müəssisələrində siyahı tərkibində olan işçilərin sayı əvvəlki illə müqayisədə 9,0 faiz artaraq 1522 nəfər, bu sahədə çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 1245,5 manat təşkil etmiş və əvvəlki ilə nisbətən 16,7 faiz çox olmuşdur.

***Goranboy Rayon Statistika İdarəsi***

10_27 IYUl-QARA.qxd 3/14/2024 9:54 PM Page 15



# Navalnının köməkçisi hücuma məruz qalıb

***Mərhum müxalif siyasətçi Aleksey Navalnının köməkçisi Leonid Volkov Litvada hücuma məruz qalıb.***

”Unikal” xəbər verir ki, bu barədə Navalnının sözçüsü Kira Yarmiş “X” sosial şəbəkəsində açıqlama verib. Məlumata görə, Volkov Vilnüsdə evinin qarşısında naməlum şəxsin çəkiclə hücumuna qalıb. Belə ki, şəxs Volkovun avtomobilinin şüşəsini sındırıb, daha sonra onu çəkiclə vurmağa başlayıb.

Hücum nəticəsində qolu sınan və ayağından zərbələr alan Leonid Volkov müalicə olunduqdan sonra evə buraxılıb.

***Zərifə Nağıyeva***

# Putin seçkilərlə bağlı xalqa müraciət etdi

***Ruslar martın 15-17-də keçiriləcək prezident seçkilərində iştirak etməlidirlər, çünki bu, yaxın illərdə Rusiyanın inkişafına təsir göstərəcək.***

”Unikal” xəbər verir ki, bunu Rusiyanın hazırkı lideri Vladimir Putin vətəndaşlara müraciətində deyib.

Rusiya lideri videomüraciətində qeyd edib ki, birlikdə irəliləmək əzmini təsdiq etmək lazımdır: ”Səsinizin hər biri dəyərli və əhəmiyyətlidir. Ona görə də sizi növbəti üç gündə səsvermə hüququnuzdan istifadə etməyə çağırıram”.

O, Rusiyanın çoxmillətli xalqının böyük bir ailə olduğunu vurğulayıb: ”Yalnız siz, Rusiya vətəndaşları, Vətənin taleyini müəyyənləşdirirsiniz. Siz sadəcə səs verməklə kifayətlənməməli, iradənizi və arzularınızı, Rusiyanın gələcək inkişafında şəxsi iştirakınızı qətiyyətlə bəyan etməlisiniz, çünki seçkilər gələcəyə bir addımdır”.

***Ağarza Elçinoğlu***

# Polşa 50-dən çox səfirini geri çağırır

***Polşa 50-dən çox ölkədə səfirlik missiyasını başa çatdırır.***

”Unikal” xəbər verir ki, bu barədə Polşa Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Departamentin məlumatına görə, bu qərarı xarici işlər naziri Radoslav Sikorski verib. Bildirilir ki, kadr dəyişiklikləri Polşa hökuməti ilə razılaşdırılıb. Rəsmi versiyaya görə, bu addım “bu gün Polşa xarici siyasətinin qarşısında duran mürəkkəb problemlərin daha yaxşı peşəkar həllinə” kömək etməlidir. Polşa səfirlərinin geri çağırılması prosedurlarına artıq başlanılıb.

***Gülayə Mecid***

# Aİ-dən Ukraynaya 5 milyard avroluq hərbi yardım

***Avropa İttifaqı Ukraynaya əlavə olaraq 5 milyard avro hərbi yardım ayıracaq.***

”Unikal” xəbər verir ki, bu barədə Avropa İttifaqının 27 ölkəsinin səfirləri müvafiq razılığa gəliblər.

Avropa diplomatiyasının rəhbəri Josep Borrell də səfirlərin islahatla bağlı razılığa gəldiyini təsdiqləyib: ”Fond bizə Ukraynaya hərbi yardımı daha 5 milyard avro artırmağa imkan verəcək”.

***Ağarza***

# FTB-nin təlim mərkəzində partlayış, 16 nəfər yaralandı

***Kaliforniyada Federal Təhqiqatlar Bürosunun (FTB) təlim mərkəzində partlayış baş verib.***

”Unikal” xəbər verir ki, bu barədə “CBS News” telekanalı məlumat yayıb. Hadisə nəticəsində xəsarət alan 16 nəfər xəstəxanaya yerləşdirilib.

Məlumata görə, partlayış Orinc dairəsində istehkamçıların və xüsusi təyinatlıların birgə təlimi zamanı baş verib. FTB baş verənlərin təfərrüatlarını araşdırır.

# Ermənistan XİN-dən sərhədlərin demarkasiyası ilə bağlı açıqlama

***Nikol Paşinyan Ermənistan və Gürcüstan arasında dövlətlərarası sərhədin demarkasiyası prosesini başa çatdırmaq üçün əməli addımların atılması ilə bağlı razılığa gəldiklərini açıqlayıb.***



”Unikal” xəbər verir ki, bu barədə Ermənistan XİN-in məlumatına görə, razılıq baş nazirin yanvar ayında Gürcüstan Respublikasına səfəri zamanı əldə olunub.

Artıq bu barədə müvafiq idarələrə göstəriş verildiyi deyilir: ”Ermənistan və Gürcüstan arasında dövlət sərhədinin demarkasiyası prosesi 1995-ci ildə Ermənistan və Gürcüstanın hökumətlərarası nümayəndə heyətləri dövlət sərhədinin demarkasiyası və delimitasiyası üzrə komissiyaların yaradılması barədə razılığa gəldikdən sonra başlayıb.

Ermənistan və Gürcüstanın yüksək rütbəli nümayəndələrinin son təmasları zamanı formalaşmış ümumi təsəvvürdən başqa, Ermənistan və Gürcüstan arasında dövlətlərarası sərhədin demarkasiyası işlərini aktivləşdirmək lazımdır.

Gürcüstan tərəfi ilə birgə işin bərpası üçün son tarixlər müzakirə olunur və komissiyaların işi barədə məlumat vaxtında təqdim olunacaq”.

***Ağarza Elçinoğlu***

# Venesuela prezidentinə sui-qəsd təşkil etmək istəyənlər saxlanıldı

***Venesuelada ölkə prezidenti Nikolas Maduroya sui-qəsd təşkil etməkdə şübhəli bilinən iki vətəndaş saxlanılıb.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə ölkənin baş prokuroru Tarek Uilyam Saab məlumat verib.

”Bu işdə Milli Qvardiyanın keçmiş serjantı Renzo Flores və müxalif “Case R” təşkilatının üzvü Vilfer Xose Pina saxlanılıb. Onların ”WhatsApp” yazışmaları deşifrə olunub”, - Saab bildirib.

Məlumata görə, həbs zamanı onların telefonlarında tankları ələ keçirmək və dövlət çevrilişi təşkil etmək üçün 50 əsgərin cəlb edilməsi ilə bağlı söhbətlər də aşkarlanıb.

Qeyd edək ki, Venesuelada son bir il ərzində prezidentə qarşı beş sui-qəsd cəhdində şübhəli bilinən 40-a yaxın adam həbs edilib.

***Gülayə Mecid***



# Paşinyan Avropa Parlamentinin bəyanatından danışdı

***Avropa Parlamenti dünən Aİ ilə Ermənistan arasında daha sıx əlaqələrin və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasının zəruriliyi ilə bağlı qətnamə qəbul edib.***



”Unikal” xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

Onun sözlərinə görə, sənəd lehinə 504, əleyhinə 4, bitərəf 32 səslə qəbul edilib: ”1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanaraq, qətnamə Ermənistan Respublikasının suverenliyi, ərazi bütövlüyü və müstəqilliyinə sarsılmaz dəstəyi ifadə edir. O, həmçinin Ermənistan və Azərbaycan arasında sülh səylərini dəstəkləyir.

Bu cür mesajlara hökumətdən və ya parlament çoxluğundan daha geniş reaksiya lazımdır. Eyni zamanda, mən hökumətin Ermənistan-Aİ əlaqələrinin daha da dərinləşməsi və inkişafı istiqamətində işi davam etdirmək iradəsini ifadə etməliyəm”.

***Ağarza Elçinoğlu***

# "Azərbaycan və Ermənistanın COP29-a qədər sülhə nail olacağına inanıram" - Rişi Sunak

***Bakı noyabrda COP 29-a ev sahibliyi edəcək.***

”Unikal” xəbər verir ki, bunu Böyük Britaniyanın Baş naziri Rişi Sunak ”Parçalanmış dünyanın bərpası” mövzusunda XI Qlobal Bakı Forumunun iştirakçılarına ünvanladığı məktubda yazıb.

Baş nazirin sözlərinə görə, Azərbaycan bu çətinliyin öhdəsindən layiqincə gələcək: ”Biz qlobal emissiyaları azaltmalıyıq. Böyük Britaniya neft və qaz istehsalçısı kimi Paris öhdəliklərinə sadiqdir. Biz iqlim dəyişikliyi ilə mübarizə üçün trilyonlarla maliyyə cəlb edəcək iddialı nəticələrə nail olmalıyıq. Azərbaycan, BƏƏ və Braziliyanın bu sahədə birgə fəaliyyətini də alqışlayırıq”.

Rişi Sunak qeyd edib ki, Böyük Britaniya Xəzər dənizi üzərindən yeni nəqliyyat əlaqələrini dəstəkləyir: ”Biz COP29 ilə bağlı Azərbaycanı dəstəkləməyə davam edirik. İnanıram ki, COP29-a qədər Azərbaycan və Ermənistan sülhə nail olacaqlar”.



***Ağarza Elçinoğlu***

10_27 IYUl-QARA.qxd 3/14/2024 9:54 PM Page 16



# Qurban Qurbanovun oğlu milliyə çağırıldı

***"Yurqorden"in futbolçusu Musa Qurbanlı Azərbaycan millisinə çağırılıb.***




"Unikal" xəbər verir ki, bu barədə İsveç klubunun saytı məlumat yayıb. Onun "FIFA series - Edition 2024" layihəsi çərçivəsində martın 22-də Bakıda Monqolustana, martın 25-də isə Bolqarıstana qarşı matçlar milliyə dəvət olunduğu vurğulanıb.

Qeyd edək ki, M.Qurbanlı ötən ilin iyulundan "Yurqorden"də oynayır.

# Murad Musayevin yeni klubu bəlli olub

***Rusiyanın "Krasnodar" futbol klubu Murad Musayevi komandanın baş məşqçisi təyin edib.***



"Unikal" xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

"Krasnodar FK Murad Musayevin baş məşqçi təyin olunduğunu elan edir. Müqavilə bu mövsümün sonuna qədər bağlanıb ", - deyə komandanın saytında yazılıb. Beləliklə, məşqçi 2018-ci ildən (rəsmi olaraq 2020-ci ildən) 2021-ci ilə qədər tutduğu vəzifəyə qayıdıb.

Qeyd edək ki, Murad Musayev "Sabah"ın sabiq baş məşqçisi olub.

*Gülayə Mecid*

# Qriqorçukun köməkçisindən gözlənilməz addım

***Odessa "Çernomorets"inin fiziki hazırlıq üzrə məşqçisi İqor Kasyanenko komandanın Türkiyədəki toplanışından sonra Ukraynaya qayıtmayıb.***

QOL.az sport.ua-ya istinadən xəbər verir ki, 36 yaşlı mütəxəssisə Antalyada Kişinyova uçmalı olan təyyarəyə bilet alınsa da, o, sözügedən şəhərə getməyib. Qeyd olunur ki, çox güman ki, Kasyanenko ailəsi ilə birlikdə yaxın gələcəkdə yaşamağı planlaşdırdığı Mayamiyə (ABŞ) gedib. Artıq "Çernomorets"in nümayəndələri mütəxəssisi məşqçilik lisenziyasından məhrum etmək niyyətində olduqlarını bəyan ediblər.

Xatırladaq ki, ötən ilin oktyabrında bir neçə ukraynalı idmançı və məşqçi xaricdəki təlim-məşq toplanışından ölkəyə qayıtmayıb.



Qeyd edək ki, "Çernomorets"in baş məşqçisi "Qəbələ"nin sabiq çalışdırıcısı Roman Qriqorçukdur.

# Messi və Suares qol vurdu, "İnter Mayami" 1/4 finala adladı

***Məşhur futbolçu Lionel Messinin də formasını geyindiyi "İnter Mayami" CONCACAF Çempionlar Kubokunda 1/8 finalın cavab oyununa çıxıb.***



QOL.az xəbər verir ki, komanda "Neşvil"lə bu dəfə "Çeyz" stadionunda qarşılaşıb. Görüş Mayami təmsilçisinin 3:1 hesablı qələbəsi ilə başa çatıb. Bu komandalar arasında ilk oyun 2:2 hesablı heç-heçə ilə yekunlaşmışdı.

Cavab matçında "İnter Mayami"dən 8-ci dəqiqədə Luis Suares, 23-cü dəqiqədə Lionel Messi, 63-cü dəqiqədə isə Robert Teylor fərqlənib.

"Neşvil"in yeganə qolunu 90+3-cü dəqiqədə Sem Surric vurub.

"İnter Mayami" 1/4 finalda "Monterrey" - "Cincinnati" cütünün qalibi ilə qarşılaşacaq (ilk görüş "Monterrey"in səfərdə 1:0 hesablı qələbəsi ilə başa çatıb).

# Belçika millisinin baş məşqçisi ilə yeni müqavilə imzalandı

***Belçika Futbol Federasiyası millinin baş məşqçisi Domeniko Tedesko ilə yeni müqavilə imzalayıb.***

QOL.az qurumun saytına istinadən xəbər verir ki, mütəxəssislə müqavilənin müddəti 2026-cı ilə qədər uzadılıb.

Tedesko 2023-cü ilin fevralında Belçika millisini çalışdırır. Belçika millisi martın 23-ü İrlandiya, martın 26-da İngiltərə ilə yoxlama oyunu keçirəcək.



Qeyd edək ki, Belçika Avro-2024-də E qrupunda Ruminiya, Slovakiya, B Yolunda pley-off qalibi (İsrail, İslandiya, Bosniya və Herseqovina, Ukrayna) ilə mübarizə aparacaq.




# "Barselona"nın vitse-prezidenti istefa verdi

***İspaniyanın "Barselona" komandasının maliyyə məsələləri üzrə vitse-prezidenti Edaurd Romeu istefa verdiyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, o, çalışdığı digər şirkətlərdəki işlərinə daha çox diqqət ayırması üçün bu addımı atıb.

Qeyd edək ki, Eduard Romeu 2021-ci ilin yazından Kataloniya klubunda işləyirdi.

# "Neftçi"nin futbolçusu millinin düşərgəsinə gedəsi olmadı



***"Neftçi"nin futbolçusu Alfa Kontenin şərəfini qoruduğu Syerra Leone milli komandasının Sudan və Botsvana yığmaları ilə martın 22-də və 25-də keçirməli olduğu yoldaşlıq oyunları ləğv olunub.***

"Unikal" xəbər verir ki, bu haqda "Neftçi"nin yaydığı açıqlamada bildirilib.

Səbəb Sudan və Botsvana yığmalarının bu matçlardan imtina etməsidir. Buna görə də Konte milli komandanın düşərgəsinə yollanmayacaq.

# "Səbail"lə oyundan əvvəl "Neftçi"dəki son durum

***Misli Premyer Liqasının 27-ci turunda "Səbail"lə matçdan əvvəl "Neftçi"nin zədəli futbolçularının son durumu açıqlanıb.***



"Unikal" klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, bərpa və müalicə prosesini davam etdirən Emil Balayev, Ataa Caber və Azər Əliyev bu oyunda iştirak edə bilməyəcəklər.

"Kəpəz"lə matçda zədələnən Emin Mahmudovun "Səbail" ilə qarşılaşmada meydanda olub olmayacağına isə oyun günü aydınlıq gələcək.

Qeyd edək ki, sözügedən görüş bu gün keçiriləcək və saat 19:00-da başlayacaq.

# Murad Musayev Rusiya klubuna baş məşqçi təyin olundu

***"Sabah"ın sabiq baş məşqçisi Murad Musayevin yeni iş yeri müəyyənləşib.***

QOL.az xəbər verir ki, o, "Krasnodar"ın baş məşqçisi təyin olunub. Bu barədə Rusiya Premyer Liqası təmsilçisinin saytı məlumat yayıb. 40 yaşlı mütəxəssislə bu mövsümün sonuna kimi müqavilə imzalanıb. M.Musayev istefaya göndərilən Vladimir İviçi əvəzləyib.

Qeyd edək ki, "Krasnodar" Rusiya Premyer Liqasında 20 oyundan 39 xalla 2-ci yeri tutur və lider "Zenit"dən 1 xal geri qalır.

Musayev fevralda "Sabah"dan ayrılmışdı. O, 2018-ci ilin aprelindən 2021-ci ilin aprelinədək "Krasnodar"ı çalışdırıb.